Öyrənilən xassələrin inkişaf dərəcəsini əks etdirən kəmiyyət məmulatları əldə etməyə yönəlmiş metodikalar psixodiaqnostik nəsticələrin kəmiyyət ölçülərinin və metodlarının işlənib hazırlanmasından istifadə edilməsinə imkan verir. Bununla birlikdə bu metodikalar eyni kəmiyyət göstəriciləri olan müxtəlif psixoloji keyfiyyətləri keyfiyyət cəhətdən bir-birindən fərqləndirməyə imkan vermir. Məsələn, D.Makkeleland, C.Atkinson və digərlərinin metodikalarının köməyi ilə uğurqazanma motivasiyasının gücünü qiymətləndirə biləriksə, eyni kəmiyyət göstəriciləri olan sınaqdan keçirilən müxtəlif adamların uğurqazanma motivasiyası haqqında mühakimə yürüdə bilmirik. Bununla birlikdə onlar kəmiyyət etibarı ilə müxtlif ola bilər. H.Hekhauzen hələ öz dövründə göstərmişdir ki, D.Makkeleland və başqalarının metodikası üzrə uğurqazanma motivasiyasının güc göstəricilərində əslində iki müxtəlif keyfiyyət motivi gizlənir: uğurlara cəhd göstərmə motivi də uğursuzluqdan qaçmağa cəhd

göstərmə motivi. Uğurqazanma motivləri gücünə görə eyni olan iki adam insan fəaliyyətinin müxtəlif sferalarında uğurlara cəhd göstərən iki adam bir-birindən əhəmiyyətli dərəcədə fərqlənə bilər: biri biznesdə, digəri incəsənətdə, üçüncüsü isə idmanda və s.

Digər tərəfdən ancaq eksperimental məlumatların keyfiyyət təhlilinə əsaslanan metodikalar nəticələri kəmiyyət cəhətdən işləyib hazırlayan metodikadan istifadə etməyə imkan vermir, müəyyən xassənin inkişaf səviyyəsi haqqında mühakimə aparmaq və göstəricilərin səbəb-nəticə olaraq əlaqələrinin bilavasitə sübut etmək olmur.

## §1.5. Psixodiaqnostik metodlara və vəziyyətlərə verilən tədbirlər

Psixoloji-pedaqoji eksperimentin kifayət qədər etibarlı araşdırma vasitəsi olması və tam inandırıcı praktiki nəticələr çıxarmağa imkan verməsi üçün psixodiaqnostik metodların elmi surətdə əsaslandırılması çox vacibdir. Aşağıdakı tələblərə cavab verən metodlar hesab olunur: validlik, etibarlılıq, birmənalılıq və dəqiqlik.

Psixodiaqnostik metodların təsnifatı müəyyən meyarlar əsasında aparılmalıdır.

1. Bu meyar düzgün cavabın olub-olmaması prinsipindən ibarətdir. Həmin prinsipə görə metodikalar əsasında cavabın doğruluğunun əhəmiyyət verilmədiyi məsələləri olanlara bölünür müəyyən psixi funksiyaları ölçmək üçün bu iki qrup metodikalardan biri daha adekvat sayılır. Məsələn, intelektin səviyyəsini müəyyənləşdirmək üçün tətbiq olunan Raven testi I qrupp metodikalarındandır. Qabiliyyətlər də dəqiqi ölçmə tələb edən funksiyalardandır. II qrup metodikalar vasitəsilə daha effektiv olur.

2. Verbal və qeyri-verbal. Insanın verbal funksiyası əasında metodikanın müəyyənləşdirici səciyyəsninin olub-olmamasıdır. Məsələn: sorğu testləri, əgər intervyü-söhbət şəkilində aparılarsa, nitqə müraciət metodikanın işlənməsi üçün zəruridir. Lakin digər psixoloji funksiyaları qabiliyyətləri, müəyyən edən şəxsiyyət əlamətlərinin müəyyənləşdirilməsində qeyri-verbal metodikalardan istifadə effektiv nəticələrə gətirib çıxarır. Qeyri-verbal metodikalar zaman problemini də uğurlsa həll edir. Yəni tez bir zamanda məlumat əldə olunur.

3. Metodikanın əsasında duran metodik peinsiplər: -Bu meyara görə aşağıdakı qruplar ayrılır: a) obyektiv testlər; b) standartlaşdırılmış özünü hesabatlar; c) proyektiv metodikalar; d) interaktiv metodlar.

Bu tələblərdən hər birini ayrılıqda araşdıraq:

“Validlik” termini-avromənəli söz kimi “tam”, “bütöv”, “uyğun”, “vacib” mənalarını ifadə edir. Psixodinamik metodikanın validliyi hər hansı psixoloji keyfiyyətin öz təyinatına uyğun qiymətləndirilməsini tələb edir.

Metodikanın validlik xarakteristikası həmin metodikanın həmin metodikanın nəyi ölçməsindən başqa onun şəraiti, istifadə şərtləri haqqında məlumatları da özündə birləşdirir.

Valideyn hər birinin ayrılıqda araşdırmaq və qiymətləndirmək lazim olan bir neçə növü vardır. Validlik nəzəri və praktik (emprik) daxili və xarici ola bilər.

**Nəzəri validlik**-həmin metodikanın köməyi ilə araşdırılan keyfiyyət başqa metodikalardan alınan göstəricilər arasında nəzəri təlif metodikalarının köməyi ilə alınan eyni bir keyfiyyət göstəricisinin dəyişmə əmsalı yoxlanılır.

Emprik validlik sınaqdan keçirilən real müşahidə olunan davranışın və reaksiyalarının uyğun diaqnostik göstəriciləri yoxlanılır. Əgər, məsələn, hər hansı sınaqdan keçirilən adamın xarakter keyfiyyətlərini bəzi metodikailə qiymətləndirsək, istifadə olunan

metodika praktik və ya emprik olaraq o halda vahid ola bilər ki, metodikanın diktə etdiyi kimi, həmin adam özünü həyatda onda məxsus olan həmin xarakter əlamətlərinə uyğun aparmalıdır.

Metodikanən emprik validlik ölçüsü real həyati davranışın və ya insanların praktiki fəaliyyətinin nəticələrinin göstəriciləri ilə müqayisədə yoxlanılır.

Daxili validlik metodikada mövcud tapşırıqların, subtestlərin, mühakimələrlə ümumi məqsədin və bütövlükdə metodikanın əsasına qayəsinə uyğunluğu deməkdir.

Metodika o zaman daxilən qeyri-valid və ya kifayət qədər daxilən qeydi-valid olur ki, ona daxil olan sualların, tapşırıq və subtestlərin hamısı və ya bir hissəsi həmin metodikadan tələb olunmur.

**Xarici validlik**-təxminən emprik vahidlikdir, ancaq bir fərqlə xarici validlik sınaqdan keçirilənin davranışına aid olan əsas vacib xarici əlamətlərlə göstəriciləri arasında əlaqə olmasını nəzərdə tutur.

Metodikanın işləyib hazırlayarkən onun validliyini qiymətləndirmək çətindir. Adətən, metodikanın validliyi kifayət qədər uzun müddət istifadə prosesində yoxlanılır və dəqiqləşdirilir, yuxarıda təsvir etdiyimiz dörd tərəfin qoxlanılmasından söhbət gedir.

Validliyin növlərindən başqa, vahidlik ölçülərini (sərhədlərini)də bilmək vacibdir. Əsas əlamətlər həmin metodikanın praktik olaraq vahid olub-olmamaını mühakimə etməyə imkan verir. Bu ölçülər aşağıdakılardır:

1. Davranış ölçüləri-müxtəlif həyatı proseslərdə sınaqdan keçirilənlərin reaksiyaları və hərəkətləri.

2. Müxtəlif fəaliyyət növlərində: təlim, əmək, yaradıcılıq və digər fəaliyyət növlərində sınaqdan keçirilən uğurları

3. Müxtəlif nəzarət-yoxlama və tapşırıqlarının yerinə yetirilməsini göstərən məlumatlardır.

4. Başqa metodların köməyi ilə əldə olunan məlumatların validliyi və ya yoxlanan metodika ilə əlaqəsinin həqiqi olaraq müəyyən edilməsi

Metodikanın etibarlılığı onun köməyi ilə etibarlı göstəricilərin alınması mümkünlüyüdür (ölçən alətdən, eksperiment aparmanın sınanan adamlardan deyil, eksperiment aparandan və ya dəyişilən psixoloji xassədən-ölçən cihazın etibarlılıq dərəcəsi nəzərdə tutulur).

Psixoloji testləşdirmənin nəticələri çətin nəzarət edilən amillər məcmusundan asılı olur: ölçmə cihazının keyfiyyətindən, psixoloji testləşdirmə situasiyalarının relevant xarakteristikalarının daimliyindən, sınaqdan keçirilənlərin təlimatları düzgün anlamasından, eksperimentatorun davranışından, sınaqdan keçirilənlərin aktual psixoloji əhvalından. Bu amillərdən birinin psixodiaqnostik araşdırma prosesində adətən, ölçmənin etibarlılığının aşağı düşməsinə gətirib çıxarır. Bu amillərin daimliliyinin gözləmək, hər hansı psixodiaqnostik metodikanın yüksək etibarlılığına ümid bəsləmək çətindir. Bu amillər içərisində metodikanın etibarlılığı ən vacibdir, digər amillər alınan nəticələrin daimiliyinə az təminat verir.

Psixodiaqnostik metodikanın etibarlılığı iki üsulla təmin olunur: həmin metodikanın köməyi ilə müxtəlif insanların göstəricilərindən alınan nəticələrin müqayisə edilməsi yolu ilə, eyni vəziyyətlərdə həmin metodikadan istifadədən alınan nəticələrin müqayisə edilməsi yolu ilə.

Metodikanın dəqiqliyi psixodiaqnostik eksperimentin gedişində qiymətləndirilən xassələrdə gedən ən kiçik dəyişikliklərə onun incəliklə reaksiyavermə qabiliyyətini əks etdirir. Psixoloji metodikanın dəqiqliyi texniki ölçmə cihazlarının dəqiqliyi ilə müqayisə oluna bilər. məsələn, ancaq santimetrlərlə bölünmüş ölçüyə nisbətən kobud şəkildə uzunluğu ölçəcək. Eyni ilə də 0,001 mm bir-birindn fərqləndirilən uzunluğu qiymətləndirən mikrometr cihazı məktəbli xətkeşinə nisbətən daha dəqiq ölçmə cihazı hesab olunur.

Psixodiaqnostik metodika nə qədər dəqiq olsa, onun köməyilə ölçülən keyfiyyətin səviyyələrini qiymətləndirmək və onun çalarlarını aşkar etmək mümkün olur. Ancaq praktik psixodiaqnostikada çox yüksək

dəqiqlik səviyyəsi tələb olunmur. Onun zəruri praktiki ölçüsü sınaqdan keçirilənləri ancaq iki yarımqrupa bölmək vacibdirsə, tətbiq olunan metodikaya uyğun olaraq onları iki qrupa ayırmaq lazımdır. Sınaqdan keçirilənlər beş qrupa ayırmaq lazımdır. Sınaqdan keçirilənlər beş qrupa bölmək lazımdırsa, metodikada beş bənddən ibarət cavab şkalalara ayırmaq vacibdir: 1) “hə”, 2) “hə, nəinki yox”, 3) “nə hə, nə yox”, 4) “həddən çox, yox, nəinki hə”, 5) “yox”.

Metodikanın təkmənalılığı hər hansı metodikanın qiymətləndirdiyi xassədə gedən dəyişiklikləri düzgün əks etdirilməsi ilə xarakterizə olunur. əgər alınan göstəricilərdə bu xassənin metodikanın dəlilləri onun validliyi hüdudlarından kənara çıxır, başqa göstəriciləri də əks etdirirsə, bu onu göstərir ki, metodika birnmənalı ölçü meyarına uyğun deyil. Məsələn, əgər eksperimentatoru insanın davranış motivlərini qiymətkəndirmək maraqlandırırsa, bunu əldə etmək üçün o, sınaqdan keçirilənlərə əsasən suallar verirsə, alınan cavablar birmənalıq ölçüsünə uyğun olmayacaqdır. Bu cavablardan sınaqdan keçirilənlərin öz davranışını anlama səviyyəsi də, eksperimentator qarşısında xeyirxah görünmək istəyi də diaqnostik eksperimentin mümkün nəticələrini qiymətləndirilməsi də əks olunacaqdır.

Təkmənalıq ölçüsü təkcə uşaqların təlim uğurlarının qiymətləndirilməsi üsulunun da tam təmin edə bilməz, belə ki, təlim uğurları həmişə obyektiv qiymətləndirilmir. Bu qiymətləndirmədə məktəblilərin öz biliklərindən başqa uşaqların müəllimə münasibəti də davranışı əks olunur.

Psixodiaqnostikada eksperiment aparan şəxslər bu və ya digər metodikadan istifadə etmək üçün validlik və etibarlılıq, dəqiqlik və birmənalılıq tələblərinə əməl etməlidirlər. göstərdiyimiz bu tələblərdən ikisi-validlik və etibarlılıq ölçüləri, əgər ölçmə cihazı uyğun gəlmirsə, ümumiyyətlə onu psixodiaqnostik vasitə kimi istifadı etmək olmaz. Əgər

metodika tam dəqiq və təkmənalı deyilsə, ondan qeyd-şərtsiz istifadə etmək olmaz.

Yaddan saxlamaq lazımdır ki, dəqiq olmayan metodika eksperiment nəticəsində baş verən müqayisədə çox kiçik dəyişiklikləri müəyyənləşdirməyə imkan verməyəcək və nəticədə dəyişiklik olan yerdə olmadığını təsbit edəcəkdir. Kifayət qədər birmənalı olmayan metodika məhz qiymətləndirilən keyfiyyətin dəyişmə göstəricisini kifayət qədər düzgün müəyyən etməyə imkan vermir.

Psixodiaqnostikanın nəticələrinə istifadə olunan metodikadan başqa sınaqdan keçirilənlərin təlimatları anlaması vəziyyətinə, habelə testləşdirmə məqamında eksperimentatorun özünün şəxsiyyət və davranışına təsir göstərir.

Sınaqdan keçirilənlər situasiyasını imtahan kimi qəbul edirsə, ona uyğun da davranacaq. Yüksək həyəcanlı insan, ehtimal ki, həmişə və hər yerdə yüksək narahatlıq keçirir, şəxsiyyət üçün təhlükə hiss edir və nəticədə hər situasiyanın öz şəxsiyyət üçün potensial olaraq təhlükə kimi qəbul edəcəkdir.

Sınaqdan keçirilənlərin davranış və onların göstərdiyi nəticələr onların təlimatları necə anlamasından asılıdır. Odur ki, psixodiaqnostikada təlimatların uyğunluğu və dəqiq formulə edilməsinə xüsusi tələblər verilir. Təlimatlar kifayət qədər sadə və aydın olmalı, birmənalı olmayan söz və ifadələrə yer verilməlidir. Təlimatların yazılı şəkildə olması daha yaxşıdır, belə ki, şifahi təlimatlar müxtəlif paralinqvistik komponentlərlə: jest, mimika, pantomimika, intonasiya, sürət, pauza və s. tələffüz edilir. Bundan başqa şifahi təlimatları sınaqdan keçirilənlər tez unudur, bir sözlə, onlardan qeyri-iradi yayınma mümkündür.

Bir çox hallarda araşdırmaların nəticələri eksperiment aparanların şəxsiyyətinə və davranışına təsir göstərir. Qeyd edək ki, məsələn, eksperimentatora şəxsən sınaqdan keçirilənlər simpatiya bəsləyirsə,

sınaqdan keçirilənlərə onun hörmət və qayğıkeş münasibəti hiss olunursa, bu halda onlar qeyri-iradi,eksperimentatoru razi salan nəticələr göstərməyə can atacaqdır. Əksinə, olduqda isə yəni onların münasibəti antipatiya bəsləyirsə, onlar adaətən eksperimentatorun bəyəndiyi nəticələr göstərməyə cəhd göstərəcəkdlər.

Eksperiment aparanın davranışına dair tövsiyyələr budur ki, o, sakit, tarazlı olmalı, sınaqdan keçirilənlərə münasibətdə qayğıkeş, hörmətəlayiq və kifayət qədər bərabər münasibət göstərməlidir.

## § 1.6. Psixodiaqnostik testlər və testləşdirmələr

Psixologiyada testləri öyrənib müqayisə edilən xassələrin kəmiyyət və keyfiyyət göstəricilərinin inkişaf səviyyəsini müəyyən etməyə imkan verən psixodiaqnostikanın standartlaşdırılmış metodikası adlandırırlar. Standartlaşdırma anlayışı altında situasiyadan və təlimatdan başlayaraq sınaqdan keçirilənlər alınmış məlumatların hesablanması və şərhi üsullarınadək hər yerdə və həmişə eyni halda tətbiq olunan metodika nəzərdə tutulur.

Müqayisəlik o deməkdir ki, testlərin köməyilə əldə edilən qiymətlər, nə zaman, harada, kim tərəfindən alınmasına baxmayaraq, düzgün tətbiq edilibsə, bir-biri ilə tutuşdurulsun. Bütün mümkün diaqnostik metodikalarda testlərə validlik, etibarlılıq, dəqiqlik və tək mənalıq kimi ciddi tələblər verilir.

Müxtəlif əşyalarla qruplara ayrılan test növləri mövcuddur: testlışdirmə mövzusuna görə ( həmin testin köməyi ilə qiymətləndirilən keyfiyyət), testdə istifadə olunan vəzifələrin xüsusiyyətlərinə görə sınaqdan keçirilənlərin materialına görə (insanda müxtəlif idrak proseslərinin inkişaf səviyyəsi qiymətləndirilir); şəxsiyyət və şəxsiyyətlərarası testlər mövcuddur. Istifadə olunan vəzifələrə görə testlər

praktik, obrazlı və sözlü (verbal) testlərə ayrılır. Test metaerialının xarakterinə görə sınaqdan keçirilənlərə blank, apparatura testləri mövcuddur. Qiymətləndirmə obyektinə görə presesual, nailiyyət, əhval testləri və xassə testləri olur.

Intelektual testləri insan təfəkkürünün, onun qavrayış, diqqət, təxəyyül, yaddaş, nitq kimi müxtəlif koqnitiv proseslərinin inkişaf səviyyəsinin qiymətləndirilməsi üçün nəzərdə tutulmuşdur. Şəxsiyyət testləri insanın davranışını müəyyən edən möhkəm fərdi xüsusiyyətlərinin psixodiaqnostikası ilə əlaqədardır. Buraya temperament, xarakter, mostivasiyalar, emosiyalar, qabiliyyətlər daxildir. Testlər arasında şəxsiyyətin əhvallarının hərtərəfli, kompleks şəkildə və ya ayrı-ayrı xassələrin inkişaf səviyyəsinin qiymətləndirən testlərə da rast gəlmək mümkündür. Məsələn, Kettelin testləri, MMPİ və digər testlər kompleks testlərdir. Insan xəsiyyətinin ayrı-ayrı əlamətlərini, motivlərini, emosiyalarını, xarakterin aksentuasiyasını, həyəcanlılıq, uğurqazanma motivi, aqressivlik və digər xüsusiyyətləri ölçən testlər də vardır.

Müxtəlif sosial qruplarda insanların münasibətlərini qiymətləndirməyə imkan verən, məsələn, sosiometrik testlər, qrupun kollektiv kimi sosial-psixoloji özünü attestasiyası kimi şəxsiyyətlərarası testlər mövcuddur.

Praktik test tapşırıqları-sınaqdan keçirilənlərin əyani-hərəki planda yəni real maddi əşyalar və onlarin əvəzediciləri ilə real surətdə manipulyasiyalarini nəzərdə tutan tapşiriqlar və çalişmalari özündə birləşdirir.

Obrazlı tapşırıqlar –obrazlı şəkilləri, rəsmləri, sxemləri, birləşdirən tapşırıqları əks etdirən tapşırıqlardır.

Verbal testlər-özündə sözlərlə əməliyyatlaşdırmaları birləşdirən testlərdir. Onlar, məsələn anlayışların, əqli nəticələrin müxtəlif sözlərin həcmini və məzmumunun müqayisə edilməsini anlayışlarla müxtəlif məntiqi əməliyyatların yerinə yetirilməsini nəzərdə tutur.

Testlər istifadə olunan çoxlu tapşırıqlar kompleks xarakter daşıyır. Yəni onlar həm praktik, həm nəzəri, həm bədii, həm verbal hərəkət və tapşırıqları özündə birləşdirir. Bu, onunla əlaqədardır ki, testləşdirmə insanın davranışını və mümkün uğur imkanlarının süni laborator şəraitində yox, real həyatda əvvəlcədən bilmək üçün aparılır.

Blank testlər-müxtəlif formalı blanklarda: rəsm, sxem, cədvəl, sorğu formasında tərtib edilir.

Aparatura testləri-testləşdirmənin nəticələrini müxtəlif növ aparaturada məsələn, audio və videotexnikada, elektrin hesablama maşınlarında təqdim etmək və nəticələrini işləyib hazırlamaq üçün istifadə olunur.

Prosesual testlər-hər hansı psixoloji və davranış proseslərini sınaqdan keçirməyə, nəticədə onlara dəqiq kəmiyyət və keyfiyyət xarakteristikası vermək imkanı verən testlərdir. Məsələn, insanın hər hansı bir materialı yaddasaxlama prosesi, fərdi qrupda şəxsiyyətlərarası qarşılıq təsir prosesi və s.

Uğur testlər qrupuna insanların bu və ya digər fəaliyyət növündə, idrakın hər hansı sahəsində, deyək ki, yaddaşın məhsuldarlığı, təfəkkürün məntiqiliyi, diqqətin möhkəmliyi, verbal təfəkkürün inkişaf səviyyəsi və s.-dən uğurları qiymətləndirməyə imkan verən testləri daxil etmək mümkündür.

Proyektiv testlər xüsusi qrup təşkil edir. Onlar insanın və ya digər psixoloji keyfiyyətinin birbaşa yox, dolayısı ilə qiymətləndirməyə yönəldilmiş olur. Belə qiymətləndirmələr hər hansı insanın əzi çoxmənalı obyektləri: qeyri-müəyyən subyektli şəkilləri, formasız tamamlanmamış cümlələri və s. qavranması və izahı nəticəsində əldə olunur. Belə obyektlərin qiymətləndirilməsi və izahında insanın şüursuz olaraq öz mənini əks etdirməsi ehtimal olunur. Bu qrup testlərə, məsələn, Rorşahın testləri, Tematik Appersepsiya Testləri və başqaları daxildir.

Proyektiv testlərə psixodiaqnostikadan sınaqdan keçirilən insanların gizlədilən və dərkolunmaz psixoloji xüsusiyyətləri üzərində işləyərək müraciət edilir. Psixodiaqnostik eksperiment bir model kimi müstəsna hallarda əsasən vacib keyfiyyəti başqa üsullarla açmaq imkanları olmadıqda tətbiq olunur.

Prosesual testlə araşdırıcı mütəxəssisləri sınaqdan keçirilən adamlarda psixi və davranış proseslərinin xüsusiyyətləri, uğur testlərində isə insanların qabiliyyətlərinin, bacarıq və vərdişlərinin qiymətləndirilməsi vəzifələri həlletmə zərurəti meydana çıxdıqda istifadə olunur.

Ayrıca qrupa daxil olan intellekt testləri insanların ümumi intellektual inkişaf səviyyəsini kəmiyyət cəhətdən müəyyən edib qiymətləndirmək zərurəti meydana çıxdıqda istifadə olunur.

Belə ki, psixodiaqnostikada test metodlarına xüsusi tələblər verilir. Birinci tələb testlərin sosiokultur adaptasiyasıdır. Bu söz birləşməsi test tapşırıqları və qiymətləndirçələrin müəyyən cəmiyyətə xas olan mədəniyyətin xüsusiyyətlərinə uyğun gəlməsidir. Belə tələblər adətən başqa ölkələrdən fərqli cəmiyyətlərdən alınıb istifadə olunan testlərə aiddir. Məsələn, Avropada intellektə dair yaradılmış intellektin quruluşunda sözlü-məntiqi deyil, obrazlı və ya privktik təfəkkürün üstünlük təşkil etdiyi ölkələrdə tətbiq edilərkən mütləq sosiokultur adaptasiya tələbinə riayət edilməlidir. əks təqdirdə adaptasiya olunmanın ilkin variantında belə testlərin tətbiqi sınaqdan keçirilən ölkədəki insanların təfəkkürünün səviyyəsini foğru olmadan aşağı səviyyədə göstərəcəkdir. əksinə, verbal intellekt üstünlük təşkil edir ölkədə praktiki təfəkkür testlərindən istifadə əqli inkişafın göstəriciləri sahəsində uyğun nəticələr verə bilməz.

Testlər ilk dəfə yarandığı variantları təkarar olaraq fərqli şəraitdə tətbiq edilərkən onları yeni şəraitə adaptasiya etmək vacibdir. Bu, digər ölkələrdən alınmış orijinalı başqa dildə olan testlərə aiddir. Çünki test tapşırıqlarının tərcüməsi bir dilə köçürüləndə heç vaxt mənasına və anlayışların sözlə ifadə olunmuş məzmununa uyğun gəlmir. Belə hallarda

dillərin təbiətinə uyğun olaraq hərfi tərcümədən qaçmaq mənanın nisbətən qorunub saxlanmasına nail olmaq lazımdır.

Testlərə olan ikinci tələb-test tapşırıqlarını sadə və birmənalı ifadə etməkdir. Eyni cür qəbul edilməyən və anlaşılmayan söz, şəkil və sairədən qaçmaq vacibdir.

Testlərə verilən üçüncü tələb-test tapşırıqlarının çox az vaxtda yerinə yetirilməsinin vacibliyidir. Söhbət ondan gedir ki, psixoloji test tapşırıqlarının yerinə yetirilməsinə 1,5-2 saatdan artıq vaxt sərf etmək lazm deyil. Bu, insanların iş qabiliyyətini kifayət qədər yüksək səviyyədə qalmasına imkan vermir.

Dördüncü tələb-hər hansı üşün test normasına mövcud olmasıdır. Testlərə verilən bu normaların repezentiv orta göstəriciləri həmin testləri təmsil edən orta göstəriciləri əks etdirir. Yəni bu göstəricilər hər hansı fərdin psixi inkişaf səviyyəsini onun daxil olduğu məcmu insanlar çoxluğu ilə müqayisə etməyə imkan verir. Test norması hər hansı yaş və cinsdən olan insanların böyük seçimini testləşdirməsi nəticəsində və alınmış qiymətlərin yaş, cins və digər relevant göstəricilərdən differensasiya edilib çıxarılmış orta qiymətlərinin çıxarılmasıdır.

Test norması-çox miqdarda sosial-demoqrafik xarakteristika sırasında bir-birinə bənzəyən insanların orta inkişaf səviyyəsidir.

Hər bir norma, öz qaydası ilə, vaxtına görə təbii olaraq insanların psixoloji inkişafında gedən dəyişikliklərə uyğun olaraq dəyişilir. Belə ki, XX əsrin I rübündə müəyyən edilmiş intellektual inkişaf norması, II rübün uyğun gəlmirdi, çünki həmin vaxt ərzində insanların təfəkkürü əhəmiyyətli dərəcədə yüksəlmişdir. Belə bir emprik surətdə müəyyən edilmiş qayda vardır ki, test normalarına, xüsusilə intellektual testlərə beş ildən az olmayaraq yenidən baxılmalıdır.

Mövcud normaya yenidən baxma, yenilərin müəyyən edilməsi aşağıdakı proseduraya uyğun olmalıdır. Əvvəlcə həmin testlərə araşdırma aparılacaq adamlar qrupu müəyyən edilir. Sonra həmin qrup insanlar öz

sosial-demoqrafik xarakteristikasına görə yarımqruplara ayrılır. Hər yarımqrupdan test vasitəsi ilə kifayət qədər uyğun adamlar seçilir. Sonra onlardan alınmış orta göstəricilər çıxarılaraq həmin qrup adamlar məcmusu üçün test norması çıxarılır. Qeyd edək ki, testlərin müəyyən edilmiş normalarının təsvirində həmin normanın harada, necə, hansı şəraitdə müəyyən edilməsi göstərməlidir. Test normalarına verilən tələblərdən başqa testlərin aparılması, işlənməsi və nəticələrin şərhi üçün ciddi qaydalar verilir. ən vacib olan qaydalar aşağıdakılardır:

1. Psixoloq və ya digər testi tətbiq etmək üçün əvvəlcə onunla tanış olmalı, özü və ya başqa insan üzərində yoxlanılmalıdır. Bu, testləşdirmənin aparılması və kifayət qədər bələd olmamaq ucbatından qol veriləcək nöqsanlardan qaçmağa imkan verər.

2. Sınaqdan keçirilənlərin test tapşırıqları verilməzdən əvvəl onların verilən təlimatlara yaxşı anlaması qayğısına qalmalıdır.

3. Testləşdirmə aparılarkən sınaqdan keçirilənlərin müstəqil, bir-birindən asılı olmadan, bir-birinə təsir göstərmədən işlənməsinə diqqət yetirilməlidir. Çünki belə hallar testləşdirmənin nəticələrinə təsir göstərir.

4. Hər bir testin nəticələrinin inandırıcı surətdə işlənmə və əsaslandırılmış qaydaları olmalıdır. onlar testləşdirmə mərhələsində meydana çıxan səhvlərdən qaçmağa imkan verir.

Praktiki testləşdirməyə başlamazdan əvvəl müəyyən hazırlıq işləri aparılmalıdır. (bu ilkin mərhələdə ciddi surətdə müəyyən olunmuş məlumatların riyazi-statistik pryomlarına aiddir). Əvvəlcə sınaqdan keçirilənlərə test təqdim olunur və onun hansı məqsədlə aparıldığı, hansı nəticələrin alınması gözlədiyi izah edilməlidir. Sonra bütün sınaqdan keçirilənlərə verilən təlimatların düzgün dərk edilməsinə nail olmaq vacibdir. Psixoloqun testləşdirməyə başlanmasını yəqin edəndən sonra yuxarıda göstərilən təlimatların və alınan nəticələrin düzgünlüyünü təmin

edən bütün yuxarıda göstərdiyimiz şərtlərin göslənilməsinə nəzarət edilməlidir.

## Praktik psixoloqun iş prosesində qrafik üsullardan istifadə

Adətən, praktik psixoloqun iş sistemində çoxları qrafik üsullardan istifadə edir, xüsusilə də uşaqlarla çətin münasibətlərdə, eləcə də psixoloji müdafiənin xarakterindən ("Mən" obrazın təhrifində) sorğu və ənənəvi söhbətlər səmərəsiz olur. Həm də kiçik yaşlı məktəblərin lazımi səviyyədə anlamaq məsələlərində bir sıra çətinliklərlə qarşılaşırlar. Belə uşaqlarla məsləhət işi ardıcıl ünsiyyəti təmin edən uşaqların konkret həyəcanlarını azad açıq mühakimə etməyə imkan verən metodik priyomlardan istifadə tələb edir.

Volqaqrad psixoloqu T.Y.Andruşeno tərəfindən uşaqların ünsiyyətdə subyektiv çətinliklərini istifadə etmək üçün xüsusi qrafik üsul işləyib hazırlanmışdır. Ilk əvvəl bu üsul uşaqların problemlərinin qrafiki üsulla fəaliyyətləri üzə çıxarmağa və maddiləşdirməyə, ikincisi, sonadək dərk olunmayan differensasiya edilməmiş həyəcanları birləşdirməyə, üçüncü isə aranan çətinliyi analizin müzakirəsini aparmaq və şəxsi mühafizəsinə kömək, eləcə də daxili konfliktlərin həllini axtarıb tapmasını müstəqil və birgə üsullarının təşkil etməyə imkan verəcəkdir. Beləliklə, həmin proymlar aşağıdakılardır.

"Mənim ünsiyyət dairəm"-uşaqları əhatə edən yaşıdlar, valideynlər və müəllimlərlə qarşılıqlı fəaliyyət dairəsinin və xarakterini aşkar etmək üçün nəzərdə tutulmuş priyomdur.

Söhbətə başlarkən, məsləhətçi deyir: "Mən bilirəm ki,Ş istənilən insan tanımadığıinsanın suallarına cavab verməyi xoşlamır. Gəl, birlikdə sənin həyatını təsvir etməyə çalışaq, sonra isə bəzi maraqlı və vacib məqamları müzakirə edək". Təcrübə göstərir ki, belə giriş nabələd adamla

ünsiyyəyin əvvəlinə xa olan çətinliyi aradan qaldırır, gözlənilməz təklif uşağı maraqlandırır və uşaqlarla əməkdaşlığa hazır olmağa hazırlayır.

Işin sonrakı gedişi aşağıdakı istiqamətdə davam edir.

1. Gəl əvvəlcə sənin gün ərzində kiminlə və harada ünsiyyətdə olduğunu müəyyənləşdirək, sənin ünsiyyətdə olduğun çevrədə ("evdə") hər şeyin yerini müəyyənləşdirək.

Məsləhətçi uşaqlarla məsləhətləşmə onun sahələrini (ünsiyyət sahələrini) ardıcıllıqla ayrılır. Şaquli xətt həmin çevrəni iki sektora ayırır: "məktəb" və "məktəbdənkənar". Üfiqi xətt "yaşıdlar" və ya "yaşlılar" sektorunu bir-birindən ayırır. Söhbətin məqsədi uşaqların müzakirə mövzusunu anlamasından, sadələşdirmə zərurətindən və s. asılı olaraq ünsiyyət sahəsinin müxtəlif müstəviyə keçirilməsi bir az başqa cür də ola bilər. Məsələn, məktəbdə: uşaqlar, müəllimlər, məktəbdənkənar: həyətdə uşaqlar, doğma evdə. Başqa hallarda yuxarı və aşağı yarımçevrələrdə uğurlu-xoşbəxt ünsiyyət sahələrini("+" işarəli ünsiyyət) və uğursuz-təəssüf doğuran ("-" işarəli ünsiyyət) kimi göstərmək mümkündür.

3.İndi isə səninlə daha yaxından əlaqədə olan "Evin" hər sakinin "oturaq" müzakirə edək, onlar rəğbət doğuran adamlar da (dostlar, qohumlar), onlar içərisində sənin xoşlamadığın, ünsiyyətdə olmaq istəmədiyin, müxtəlif səbəblərdən rastlaşdığın adamlar da vardır.

Məsləhətçi daxil etdiyi şərti işarələrin (dairədə düzbucaqlı köməyi ilə) bütün adı çəkilən uşaqları və yaşlıları, yaşın, qarşılıqlı təsirini aydınlaşdırır. Bir qayda olaraq, uşaq soruşduqca hər şey və hamı haqqında həvəslə ətraflı danışır.

Bu prosedurada məsləhətçi (düzbucaqlıda qırmızı və ya ştrixlərin köməyi ilə) şəraiti, toplanan şəraitdə qiymət xarakteristikasını, pis münasibətlərdə yaranan günah dərəcəsin, ünsiyət çətinliklərinə gətirib çıxaran səbəbləri, şənləndirən və kədərləndirən sosial təmas hallarında emosional həyəcanların gücü və s. haqqında təfərrüat ətraflı öyrənir.

4.“Gəl, indi böyük dairədə iki dairə cızıq: birincisi, orta səviyyədə, ikincisi mərkəzə yaxın, tam ortada isə şərti olaraq səni yerləşdirək və ya sənin adını yazaq”.

5. İki karandaşdan: qara-“arzuolunmaz”, “xoşagəlməz” və rəngli-“şən”, “xoşagələn” göstərmək onları kimə aid etmək olar, kim bir-birinə zərər gətirir.

Məsləhətçi uşaqla birlikdə uyğun rənglərdən istifadə edərək qarşılıq rəğbət və nifrətin dərəcəsini qeyd edir. Məsələn, əgər rəgbət və nifrət qarşılıqlıdırsa, mərkəzində uşağın “Mən” və dairəyə düzbucaqlıda (başqa adam) uyğun rəngdə şərti ölçüdə üç arası olan xətt çəkilir. əgər rəğbət və nifrət aydın ifadə olunmayıbsa, I və II dairəyə qədər münasibətlərin sərhəddi oxla işarə olunur. Hər təsadüfə uşağın tərəf müqabilində münasibətinin xarakteri haqqında oxa uyğun istiqamət və münasibətin ifadə dərəcəsi göstərilir.

“Günah kimdədir?”-hər bir tərəf müqabili ilə-yaşlı və ya yaşıd olsun, onun arasında meydana çıxan və həll olunan konfliktdə uşağın məsuliyyət dərəcəsini aydınlaşdırmasına istiqamət verən priyomdur. “Uşağın ünsiyyət dairəsinin müzakirəsindən sonra uşağa onları şkalalarda (hissədən ibarət) ifadə etmək təklif olunur:

-konfliktin meydana çıxmasında hər iştirakçısının təşəbbüsü dərəcəsi (bir-birinə qarşı oxlarla zəruri miqdarda şərti faizlə ifadə olunur);

-hər bir iştirakçısının konfliktin həll olunmasında təşəbbüs dərəcəsi parlaq rənglərlə ifadə olunur.

Uşağın öz hərəkətlərini və tərəf-müqabilinin hərəkətlərini izah edərkən konfliktin meydana çıxmaması, inkişaf və şərtləri barışmayan inamsızlıq, bir-birini anlaya bilməmək qorxusu və s. aşkar edilir. Problemlərin müzakirəsi küskünlük və konflikt vəziyyətlərində müdafiə mexanizmlərinin mövcudluğu və gücü, aqressivlik dərəcəsi, ünsiyyətdə tərəf müqabilinə və özünə münasibəti qoruyub saxlamaq və dəyişmək haqqında təsəvvürləri genişləndirir.

“Həyatımın xoşbəxt və kədərli anları”-müxtəlif yaş dövrlərində uşaqların aparıcı modallıq həyəcanlarını aydınlaşdırmağa yönəlmiş priyomlardandır. Söhbətin istiqaməti və vəzifəsinin birgə həlli aşağıdakı kimidir:

1. Uşağın “həyat yolu” anadan doğulduğu gündən hazırki məqama qədər evdə, bağçada olduğu, məktəblə sinifdən-sinifə keçdiyi anlar intervallara ayırmaqla təsvir olunur.

2. Xəttin üstündə və altında iki məkan bir-birindən ayrılır.

Xəttin üstündə parlaq rənglərlə uşağın xoşbəxt hadisələri, ünsiyyəti, tünd rəngli qələmlə isə aşağıdakı kədərli hadisələri, ünsiyyətdə çətinliklərlə dolu günləri göstərilir. Rəng ştrixlərinin (nadir, çox) olması həyəcanları intensivliyindən xəbər verir.

# II FƏSİL. PSİXODİAQNOSTİK ÜSULLAR VƏ ONLARIN XARAKTERİSTİKASI HAQQINDA

## §2.1. Kiçik məktəb yaşlı uşaqların psixodiaqnostikasının xüsusiyyətləri

Uşaqlar məktəbə daxil olduğu andan onların psixoloji inkişaf səviyyəsində fərdi fərqləri əhəmiyyətli dərəcədə artır. Bu fərqlər uşaqlarda intelektual, mənəvi və şəxsiyyətlərarası inkişafına görə təzahür edir. Onlar eyni bir təlimata və psixodiaqnostik situasiyaya müxtəlif cür reaksiya göstərə bilərlər. Məktəbə yenicə daxil olmuş bəi uşaqlar yaşlı adamların psixodiaqnostikası üçün nəzərdə tutulmuş testlər praktik cəhətdən uyğundur, digər uşaqlar üçün 4-6 yaşlı uşaqlar, yəni məktəbəqədər uşaqlar üçün, az inkişaf etmiş uşaqlar üçün metodikalar vacibdir. Bu xüsusilə verbal özünüqiymətləndirmə, refleksiya və ətraf mühitə uşağın müxtəlif mürəkkəb şüurlu qiymətləndirmə istifadə olunan psixodiaqnostik metodlara aiddir.

Odur ki, kiçik məktəb yaşlı uşaqlar üçün bu və ya başqa psixodiaqnostik metodika elə tərtib olunmalıdır ki, intellekt cəhətdən onlar üçün həddən artıq sadə olmasın, onların intellektinə uyğun gəlsin, onların real psixoloji inkişaf səviyyəsini qiymətləndirmək mümkün olsun.

6-7 yaşlı uşaqların məktəb təliminə psixoloji hazırlığına dair emprik məlumatlar göstərir ki, onların çoxu 50%-dən 80%-ə qədəri bu və ya digər münasibətdə məktəb təliminə hazır deyil və ibtidai siniflər üçün fəaliyyətdə olan proqramlarda verilən məsələləri tam mənimsəyə bilmirlər. Onların bir çoxu fiziki yaşına görə təlimə hazır olsa da, psixoloji inişaf (psixoloji yaş) səviyyəsinə görə məktəbəqədər yaşlı uşaqlar 5-6 yaşda olurlar. Belə uşaqlara kifayət qədər çətinliyi olan, prinsipcə uyğun olan ancaq onlar üşün az maraqlı olan inkişaf etmiş iradə, iradi diqqət, yaddaş və eblə təxəyyül tələb edən ciddi psixoloji test təklif etsək, onlar bu tapşırığın

öhdəsindən gələ bilməyəcəklər. Bu onların intellektual qabiliyyət və imkanlarının olmamsına görə yox, onların şəxsiyyətinin psixoloji inkişaf səviyyəsinin kifayət qədər yüksək olmaması ucbatından baş verəcəkdir.

Əksinə, əgər həmin test tapşırıqlarını oynağan, xarici və daxili cəhətdən cəzbedici oyun formasında təklif edilsə, ehtimal ki, testləşdirmənin nəticələri başqa cür çox yüksək ola bilır.

Bu şəraiti məktəbə qədəm qoyan uşaqların, o cümlədən də birinci və ikinci sinif şagirdlərinin praktiki psixodiaqnostikasında nəzərə almaq çox vacibdir.

III-IV siniflərdə psixodiaqnostika-xüsusi testlər yaşlı adamlar üçün nəzərdə tutulmuş səviyyədədir, bir şərtlə ki, test tapşırıqları onların bilik səviyyəsinə uyğun olsun. Uyğunluq deyən də bu tapşırıqların onların qabiliyyətlərinə uyğunluğu nəzərdə tutulur. Nəzərə almaq lazımdır ki, güclü motivasiya, aktiv marağın yaradılması şəraitində testləşdirmənin nəticələri həmişə yüksək olur. Yaşlı adamlar testləşdirmədə iradi güc tətbiq etməkdə öz davranışını şüurlu surətdə idarə edə bilirsə, uşaqların çoxu kiçik məktəbli yaşından yeniyetməlik yaşına qədər bunu edə bilmir.

Elə testlər vardır ki, məsələn, yaşlıların təfəkkürünə, şəxsiyyətinə və şəxsiyyətlərarası münasibətlərinə tətbiq olunan test tapşırıqlarını kiçik məktəbli yaşlı uşaqların psixodiaqnostikasına tətbiqinə məhdudiyyətlər qoyulur. Yaşlıların sözlü məntiqi təfəkkürün inkişafında istifadə olunan testlər kiçik məktəbli uşaqlarda ona görə istifadə olur ki, kiçik yaşlı məktəblilər hələlik öz inkişaf yolunun əvvəlindədirlər. kiçik məktəb yaşlı uşaqlarda əyani-hərəki obrazlı təfəkkürü üstələyir.

Bu metodik sistemdən istifadə əsasında uşaqların məktəb psixoloji hazırlığını, ibtidai siniflərdə I siniflərdə təlim prosesində onların psixoloji inkişafını qiymətləndirmək mümkün olacaqdır.

Bu kompleks çərçivəsində psixodiaqnostik qiymətləndirməyə aşağıdakılar daxildir.

1. Uşaqların ətraf aləmə ümumi bələdliyi;

2. Uşağın məktəb təliminə münasibəti;

3. Diqqət;

4. Yaddaşı

5. Təfəkkürü;

6. Nitqi;

7. Bədii-təsviri qabiliyyəti;

8. Əmək bacarıq və vərdişləri;

9. Uğurqazanma motivasiyası.

10. Şəxsi keyfiyyətləri;

11. Şəxsiyyətlərarası münasibətlər.

Bu kompleksə daxil olan metodikadan istifadə edərək məktəb təliminə münasibətini dəqiq müəyyən etmək mümkündür. Bu metodikalar uşaqların maraq və meyllərini, qabiliyyətini və imkanlarını aşkar etməyə imkan verir. Məktəbdə təlim prosesi onların qabiliyyətlərini aşkar edib onların inkişaf etdirilməsi ilə əlaqədar məqsədyönlü psixodiaqnostik iş apramaq imkanları yaradılır.

Bu kompleksə 6-7 yaşlarından 10-11 yaşlarınadək uşaqları öyrənib müqayisəli nəticələr çıxarmağa imkan verən metodikalar daxil edilmişdir.

Bütün metodikalardan alınan qiymətlər vahid, standarlaşdırılmış qiymətləndirmə sisteminə gətirilmişdir.

Kompleksə 3 tip metodika daxil edilmişdir: 1) Ancaq uşaqların məktəbə hazırlığında istifadə olunan (məs: 6-7 yaşlı uşaqların ümumi bələdolmasını və məişət bilikləri ehtiyatını aydınlaşdırmağa yönələn) metodika; 2) Uşaqların məktəb təliminə hazırlığını və həmçinin psixoloji hazırlıq səviyyəsini qiymətləndirmək üçün istifadə olunan metodika.

Uşaqların psixoloji inkişafını təmin edən üç əsas sahə vardır-idrak prosesləri, şəxsiyyət və şəxsiyyətlərarası münasibətlər. Əgər uşaqların psixoloji inkişaf səviyyəsini müəyyən etmək vəzifəsi qoyulursa, onların hamısı üçün özünəməxsus metodikaları var və onlar qiymətləndirilməlidir.

Bu kompleks çərçivəsində psixodiaqnostik qiymətləndirmə metodikasına uşağın diqqət, təxəyyül, yaddaş, təfəkkür və nitq prosesləri, həmçinin onun təlim motivasiyası, uğur qazanması və bəzi əsas şəxsi keyfiyyətləri, yaşıdları və yaşlı adamlarla qarşılıqlı münasibətləri daxil edilmişdir. Nə qədər ki, idrak prosesini qiymətləndirmək psixologiyasında müxtəlif göstəricilər almaq olar, odur ki, bu kompleks metodikaları yaradarkən minimum seçmək vəzifəsi qarşıda dururdu. Birincisi uşaqların təlim və tərbiyəsinin asılı olduğu, ikincisi təlim və tərbiyənin təsiri ilə inkişaf edə biləcək, yəni uşağın psixoloji inkişafının göstəricisi olmağa xidmət edənlər seçildi. Onlar məsələn, diqqətin, yaddaş, təfəkkür, təxəyyül, nitq, uğurqazanma motivasiyasının qiymətləndirilməsinə aiddir.

Hər bir metodika bir göstərici almağa imkan verir və aparılması üçün 5 dəqiqədən 10 dəqiqəyədək vaxt tələb edir. Hər bir uşağın hərtərəfli, tam araşdırılmasına seçilmiş metodikadan və uşaqlarla işin sürətindən asılı olaraq 3 saatdan 6 saatadək vaxt tələb olunur.

Bu kompleks metodika ilə uşaqların psixodiaqnostikası aşağıdakı vəzifələri həll etməyə yönəlmişdir:

1. Həmin uşağın necə inkişaf etməsini aydınlaşdırır.

2. Onun mövcud təbii imkanları və qabiliyyətləri vaxtında aşkar edilir.

3.Uşağın təlimdə geri qalmasının və ya pis tərbiyəsinin səbəbləri aşkar edilir.

4.Uşağın seçimi və gələcək peşəyə hazırlanması haqda ona, müəllimlərə və valideyinlərə elmi surətdə əsaslandırılmış tövsiyyə və təkliflər verilir.

Psixodiaqnostik araşdırma aparmağa başlamazdan əvvəl aşağıdakılar məslətət edilir:

1. Metodikaların mətni ilə tanış olub, onları diqqətlə öyrənmək.

2.Hər bir metodikaya dair kommentariyalarla (əgər varsa) tanış olmaq.

3. Metodika üzrə zəruri olan materialları hazırlamaq.

4.Bu metodikaların köməyilə heç olmasa bir uşaöı dəqiq tədqiq edib, nəticələri işləyib hazırlamaq.

**Metodika 1.** Uşağın ətraf aləmə bələdliyi və məişət bilikləri ehtiyatı. Bu variant metodika məkətəbə daxil olan uşaqlar üçün nəzərdə tutulur. I sinifdə V sinifə qədər olan uşaqların ətraf aləmə ümumi bələdliyini qiymətləndirmək və onların məişət bilikləri ehtiyatını aşkar etmək üçün suallar siyahisindan istifadə olunur. Sualları işləmək qaydası və bunlar əsasında onların psixoloji inkişaf səviyyəsini balla qiymətləndirmə eynidir.

İndi məktəbə daxil olmaq istəyən uşaqların ümumi bələdləşməsini və onların məişət bilikləri ehtiyatını qiymətləndirmək üçün aşağıdakı suallara cavablardan istifadə olunur;

Adin nədir? (Soyadını da desə, bu səhv hesab olunmur)

Neçə yaşın var?

Ata-ananın adı nədir?

Sənin yaşadığın şəhərin adı nədir?

Yaşadığın küçənin adı nədir?

Mənzilinizin nömrəsi nədir?

Hansı heyvanları tanıyırsınız? Bir neçəsinin adını çək.

İlin hansı fəslində ağacları yarpaqlanır və hansı fəslində yarpaqlar tökülür?

Günün hansı vaxtında sən yuxudan oyanırsan, günorta yeməyi yeyirsən və yatmağa hazırlaşırsan?

Geyim əşyalarının və istifadə etdiyin mətbəx cihazların adını de!

(Düzgün cavablar: 3 geyim əşyaları adı, 3 müxtəlif mətbəx cihazının adı hesab olunur).

Uşağın hər suala verdiyi düzgün cavab 1 balla qiymətləndirilir. Bütün suallara düzgün cavab vermək üçün uşaq bu metodika ilə 10 bal maksimum hesab olunur.

Hər suala cavab üçün 30 san vaxt verilir. Bu vaxt ərzində cavabın olmaması səhv kimi dəyərləndirilir.

Məktəb təliminə psixoloji cəhətdən tam hazır uşaq hesab olunur ki, bütün suallara düzgün cavab verib, nəticədə 10 bal alsın. Yoxlama zamanı ayrılan vaxtda uşağın cavablarını yüngülləşdirən, asanlaşdıran əlavə suallar vermək olar, ancaq

düzgün cavabı diqtə edən suallar vermək olmaz. I-V siniflər üçün suallar müvafiq olaraq çətinləşdirilir.

**Metodika 2.** Uşağın məktəbdə təlimə münasibəti. Bu metodikanın vəzifəsi məktəbə daxil olan uşaqların təliminin ilk motivini öyrənmək, onlarda təlimə marağın olub-olmamasını aşkar etməkdir.

Təlimə hazırlığın aşkar psixoloji əlamətləri ilə yanaşı, öyrənməyə münasibəti uşağın məktəbdə oxumağa hazır olub-olmaması haqqında qənaətinin əsasını təşkil edir. İdrak proseslərinin qaydasında olmasına, başqa uşaqlarla və yaşlılarla birgə fəaliyyətində qarşılıqlı təmasda olmağı bacarmasına baxmayaraq, uşaq haqqında onun məktəb təliminə tam hazır olmasını demək olmaz. İki psixoloji hazırlıq əlamətini-idrak və kommunikativ əlamətin mövcudluğunda oxumaq arzusunun olmaması ilk aylarda uşaöın təlimə marağının yaranacağı şərtilə məktəbə qəbul etməyə imkan verilir. Yeni biliklərə, məktəb proqramlarının mənimsəməklə əlaqədar faydalı acarıq və vərdişlərə yiyələnmə nəzərdə tutulur. Təcrübə göstərir ki, kiçik yaşlı məktəblilərə aid olan bu metodikada 0 bal və 1 bal qiymətləri ilə kifayətlənmək lazım deyil. Çünki, birincisi burada da mürəkkəb suallarla rast gəlinir ki, onların birinə uşaq düzgün olmayan cavab verir; ikincisi, təklif olunan suallara verilən cavablar qismən düzgün və bir çox hallarda qeyri-düzgün olur. Mürəkkəb suala uşaq tam cavab vermədikdə, qismən düzgün cavablara 0,5 bal qiymətində istifadə etmək məsləhətdir.

Düzgün və tam 1 bal qiyməti kifayət qədər geniş, tam inamlı olan, düzgünlüyü şübhə doğurmayan cavabdır. Cavab birtərətli, tam deyilsə, 0,5 balla qiymətləndirilir. Məsələn, ikinci suala tam cavab (“Məktəbə ne üçün getmək lazımdır?”) təxminən belədir: “Faydalı biliklər, bacarıq və vərdişlər əldə etmək üçün!” Tam olmayan cavab: “Öyrənmək üçün!”, “Sevmək, əylənmək üçün”. Əlavə köməkçi suallardan sonra uşaq suala tam cavab verirsə, 0,1 balla qiymətləndirilir. Əlavə köməkçi sualdan sonra da cavabına yeni bir şey əlavə edə bilməyən uşaq, 0,5 balla qiymətləndirilir.

Bu metodika ilə 0,5 bal əlavə olunduğuna görə uşaq bütün suallara cavab verib 8 bal topladığına görə uşağı məktəb təliminə tam hazır etmək lazımdır. 5-dən 8 bala qədər toplayan uşaqları təlimə tam hazır olmayan və nəhayət 5 baldan aşağı toplayanları təlimə hazır olmayan hesab etmək lazımdır.

Bu metodika üzrə uşaqlara aşağıdakı suallar seriyasına cavab verməlidirlər:

1. Sən məktəbə getmək istəyirsənmi?

2. Məktəbə nə üçün getmək lazımdır?

3. Məktəbdə nə ilə məşğul olacaqsan? (Məktəbdə adətən nə ilə məşğul olurlar?)

4. Məktəbə getməyə hazır olmaq üçün uşaqların nəyi olmalıdır?

5. Dərs nədir? Dərsdə nə ilə məşğul olurlar?

6. Dərsdə şagird özünü necə aparmalıdır?

7. Ev tapşırığı nədir?

8.Ev tapşırıqlarını yerinə yetirmək nəyə lazımdır?

9. Məktəbdən qayıtdıqdan sonra sən nə ilə məşğul olacaqsan?

10. Məktəbdə oxumağa başlayanda sənin həyatında hansı yeniliklər olacaq?

Düzgün cavab sualın mənasına kifayət qədər tam və dəqiq uyğun olan cavablar hesab olunur. Uşaq məktəb təliminə o halda tam hazır ola bilər ki, ona verilən sualların çoxuna düzgün cavab versin. Alınmış cavab kifayət qədər tam deyilsə, uşağa əlavə suallar verib onun məktəb təliminə hazır olma səviyyəsi haqqında nəticə çıxarmaq lazımdır.

Sual verərkən uşağın onu düzgün anlayıb-anlamadığını bilmək vacibdir. Bu metodika üzrə uşağın cavablarının miqdarı 10 bal təşkil edir. Minimum sualların yarısına düzgün cavab verən uşaqlar psixoloji cəhətdən məktəbdə oxumağa hazır hesab olunur.

## Məktəbə qəbul olunan kiçik yaşlı məktəbli uşaqların diqqətini qiymətləndirilməsi metodlar

Diqqət-əsas psixoloji proseslərdən biri kimi uşaqların məktəb təliminə idrakı hazırlığın uğurlarını qiymətləndirmək üçün vacibdir. təlimdə xüsusilə başlanğıc dövrdə meydana çıxan bir çox problemlər diqqətin inkişafı ilə bilavasitə bağlı olan çatışmamazlıqlardır. Bu çatışmamazlıqlar məktəbə daxil olmazdan bir il əvvəl əgər uşağın fərdi xüsusiyyəylərinin həmin məqamdakı səviyyəsi mütəxəsisə məlum olarsa, aradn qaldırmaq mümkündür.

Ontogenezdə diqqətin az dəyişməsinə baxmayaraq (bu, xüsusilə bilavasitə və qeyri-iradi təbii şərtlənmiş növlərinə xasdır) Yaşla əlaqədar onun əsas xarakteristikaı kifayət qədər möhkəmdir və lazımi qədər sistematik səy göstərməklə diqqətin inkişafındakı çatışmamazlıqları aradan qaldırmaq mümkündür. Bu, diqqətin zəif inkişaf etmiş bir keyfiyyətini güclü inkişaf etmiş digər möhkəmliyinin yaxşı keçiriciliyi ilə, nisbətən az həcmli diqqətin produktivliyini yüksəltməklə, görmə diqqətindəki nöqsan eşitmə və hərəki diqqətlə tarazlanmaq, mexaniki diqqəti-inkişaf məntiqi diqqətlə aradan qaldırmaq olar. Diqqət möhkəmliyi bir obyektdə uzun müddət yüksək səviyyədə saxlamaqdır. Diqqətin paylanamsı eyni zamanda müxtəlif obyektləri eyni diqqətlə qavramaqdır.

Diqqət möhkəmliyi, köçürülməi və paylanması üçün (kiçik yaşlı məktəblilərdə) metodik material kimi Landolt həqlələri götürülmüşdür (unversal vasitə kimi).

Məktəbə daxil olan, diqqətin xüsusiyyətlərini təlimə hazırlıq səviyyəsi müəyyən etmək məqədilə yoxlanan uşaqlara bu həlqələri əlifbadakı sətirlərə bərabər böyüklükdə (ölçüdə) göstərmək lazımdır. Landolt həqlələri matrisinin bir standart makina vərəqində yerləşdirmək vacibdir. Vərəqin sol tərəfində uşağın adı, soyadı, sinfi (məktəbə daxil olan uşaq bağçası qrupunun) və araşdırma tarixi götərilir.

Diqqətin davamlılığını, paylanmsı və köçürülməsini praktik surətdə qiymətləndirmək üçün eyni bir Landolt həlqələri vərəqindən istifadə etmək olar. Yəni hər bir yeni tapşırığın həll etdiyi yerdən başlayıb davam etdirmək mümkündür.

Metodika 3. Kiçik məktəblilərin diqqətinin davamlılığının qiymətləndirilməsi.

Uşağa Landolt həlqələri blankını aşağıdakı təlimata əməl etmək üçün verilir. "İndi səninlə" "Diqqətli ol və mümkün qədər cəld işlə" oyunu oynayacağıq. Bu oyunda sən başqa uşaqlarla yarışacaqsan, baxıb görək sən bu yarışda hansı nəticəni əldə edəcəkdən. Bilirəm ki, sənin oyunun o birilərindən pis olmayacaqdır" (Şəkil 1-ə bax). Sonra uşağa Landolt həlqələri blankı göstərilib izah edilir: "Sən bu həlqələr sırasına diqqətlə baxmalı, onları yarıq yerlərini tapıb, karandaşla oranı xətləməlisən".

İş 5 dəqiqə aparılır. Hər dəqiqənin tamamında eksperimentator deyir: "Xətt çək". Bu məqamda uşaq Landolt həlqələri blankında (əmrində) yekun xətt çəkib dayanmalıdır. Hər dəqiqənin və bütövlükdə 5 dəqiqənin tamamında eksperimentator "Dayan" əmrini verir. Uşaq əmri eşitdiyi anda həlqələr blankında çatdığı yerdə şaquli xətt qoymaqla işi dayandırır.

Eksperimentator nəticələri işləyib hazırlayarkən uşağın hər bir dəqiqə və tam 5 dəqiqəlik xətlədiyi həlqələrin sayını müəyyən edir. Həmçinin də hər dəqiqədə və bütövlükdə 5 dəqiqəlik iş prosesində buraxığı səhvlərin sayını müəyyənləşdirir. Uşağın diqqətinin məhsuldarlığı və davamlılığı aşağıdakı formulla müəyyən edilir:

$$S=0{,}5\ N-2{,}8\ n/t$$

S-diqqətin məhsuldarlığı və davamlılığı, N-1 dəqiqə ərzində uşağın gördüyü həlqələrin sayı (bu formulla 5 dəqiqə ərzində diqqətin məhsuldarlığı və möhkəmliyi müəyyən edilirsə, N-5 dəqiqə ərzində xətlənmiş həlqələrin sayına bərabər olacaq, n-5 dəqiqə ərzində buraxılan səhvlərin sayı, kəsrin məxrəci isə 300-ə (60*5) bərabər olacaqdır.

Nəticələri hazırlayarkən S göstəricisi 5 dəqiqə ərzində həlqələrin sayı və bir S göstəricisi hər bir dəqiqə ərzində hesablanır.

Başqa bir metod: Araşıdrmanın aparılması üçün standart "Korrektor yoxlama" testləri blankı və saniyəölçən tələb olunur.

Blankda təsadüfən qaydada əlifbanın bəzi hərfləri çap olunmuşdur. Blankda "k" və "r" də daxil olmaqla hər sətridə 50 hərf olmaqla 2000 işarə vardır.

Araşdırmanı fərdi qaydada aparmaq lazımdır. Sınaqdan keçirilənin tapşırığa əməl etmək istəyinə inandıqdan onra başlamaq olar. Ancaq sınaqdan keçiriləndə belə təəssürat yaratmaq lazım deyil ki, o eksperimentdən keçirilir. Sınaqdan keçiriləni masa arxasında həmin tapşırığı yerinə yetirmək üçün əlverişli vəziyyətdə oturtmaq lazımdır. Eksperimentator "korrektəetmə yoxlanması" blankını ona təqdim edir və tapşırığın mahiyyətini kimi təlimatlandırır:

"Blankda" latın əlifbasının hərfləri çap olunub. Hər bir ətrə ardıcıl baxaraq "k" və "r" hərflərini axtarıb tap və onların altından xətt çək. Tapşırığı cəld və dəqiq yerinə yetir. Sınaqdan keçirilən eksperimentatorun əmri ilə başlayır. 10 dəqiqəərzində son hərflər qeyd olunmalıdır.

Nəticələri işləyib hazırlamaq üçün psixoloji ınaqdan keçirilənin korrektəetmə blankını test açarı ilə tutuşdurur.



**Şəkil 1. Landont həlqələr**

Məşğələnin protokolunda məktəblinin psixoloji pasportunda aşağıdakı göstəricilər daxil edilir: 10 dəqiqə ərzində altında düzgün xətt çəkilən hərfləri miqdarı və zəruri olaraq xətt çəkməli olduğu hərflərin miqdarı.

10 dəqiqə ərzində baxılmış hərflərə bərabər kəmiyyətdə diqqətin produktivliyi və kubik dəqiqliyi aşağıdakı düstürla hesablanır:

$$K=m/nx100\%$$

Burada n-altında xətt çəkilməli olan (ancaq çəkilməyən) hərflərin sayıdır, m-işdə düzgün olaraq altında xətt çəkilən hərflərin sayıdır.

Diqqətin davamlılığının araşdırılması protokolu

| Göstəricilər | Nəticə |
|---|---|
| 10 dəqiqə ərzində nəzərdən keçirilən hərflərin miqdarı | |
| Düzgün xətt çəkilmiş hərflərin miqdarı | |
| Xətt çəkmədiyi hərflərin miqdarı | |
| Tapşırığı yerinə yetirmə dəqiqliyi | |
| Dəqiqəliyin qiymətləndirilməsi, ballar | |
| Diqqətin möhkəmliliyinin qiymətləndirilməsi | |
| Məhsuldarlığın qiymətləndirilməsi, ballar | |

Diqqətin möhkəmliyinin inteqral göstəricini almaq üçün dəqiqlik və produktivlik qiymətlərinin uyğun ballarını adi şkala yolu ilə alınmış xüsusi cədvələ köçürmək lazımdır:

| Produktivlik | | Dəqiqlik | | Produktivlik | | Dəqiqlik | |
|---|---|---|---|---|---|---|---|
| işarələr | ballar | % | ballar | işarələr | ballar | % | ballar |
| 1010 | 1 | 70 | 1 | 2660-2825 | 16 | 84-85 | 13 |
| 1010-1175 | 3 | 70-72 | 2 | 2825-2990 | 17 | 85-87 | 13 |
| 1175-1340 | 5 | 72-73 | 3 | 2990-3155 | 18 | 87-88 | 14 |
| 1340-1505 | 7 | 73-74 | 4 | 3155-3320 | 19 | 88-90 | 15 |
| 1505-1670 | 9 | 74-76 | 5 | 3320-3485 | 20 | 90-91 | 16 |
| 1670-1835 | 10 | 76-77 | 6 | 3485-3650 | 21 | 91-92 | 17 |
| 1835-2000 | 11 | 77-79 | 7 | 3650-3815 | 22 | 92-94 | 18 |
| 2000-2165 | 12 | 79-80 | 8 | 3815-3980 | 23 | 94-95 | 19 |
| 2165-2320 | 13 | 80-81 | 9 | 3980-4145 | 24 | 95-96 | 20 |
| 2320-2495 | 14 | 81-83 | 10 | 4145-4310 | 25 | 96-98 | 21 |
| 2495-2660 | 15 | 83-84 | 11 | >4310 | 26 | >98 | 22 |

**Metodika 4.** Diqqətin paylanmasının qiymətləndirilməsi.

Diqqətin paylanması üzrə aparılan eksperimentlər 1895-ci ildə fransız psixoloqu B.Burdon tərəfindən təklif olunan korrektor testindən istifadə olunur. Bu testin mahiyyəti ondan ibarətdir ki, təqdim olunan ətr boyu hərflər və ya işarələr yazılmış cədvəldə təlimata əsasən, müəyyən zaman ərzində cədvəldə ekperimentatorun göstərdiyi hərf və işarələri seçib qeyd etməkdən ibarətdir.

Kiçik yaşlıların diqqətinin paylanmasını qiymətləndirmək Landolt həlqələri metodikasını tətbiq etmək mümkündür. Həmin stimul materialından bu təcrübdə də istifadə olunur. Ancaq burada uşaqlara təklif olunur ki, yarığı müxtəlif həlqə tapıb müxtəlif cür xətləsinlər, məsələn, yuxarıdan və soldan yarığı olanların birini bir üsulla, digərini başqa üsulla xətləsinlər.

Nəticələrin kəmiyyət işlənməsi və qrafik üsulu qaudası da əvvəlki metodikada verilmişdir. Ancaq nəticələr diqqətin paylanmasını təmin edən materiallar kimi izah olunur.

**Qeyd:** Ciddi bu məlumatlar təmiz halda ancaq diqqət paylanmasını deyil, həmçinin onun məhsuldarlığını və davamlılığını da göstərir. Diqqətin bu xüsusiyyətlərini bir-birindən ayırmaq və qiymətləndirmək mümkün deyil.

**Metodika 5.** Diqqət köçürücülüyünün qiymətləndirilməsi.

Tədiqiqatın aparılmaı üçün 49x49 sm ölçüsündə 1-dən 25-ə qədər qara, 1-dən 24-ə qədər qırmızı rəngli qələmlə yazılan rəqəmli Qorbova-Şult cədvəli, saniyəölçən və göstəricisi lazımdır. Əvvəlcə vaxt və səhvləri qeyd üçün qeydiyyat xarakterli protokolu hazırlanmışdır.

Yoxlama fərdi şəkildə aparılmışdır. Yoxlanan şəxsin qarşısına masa üzərində şaquli vəziyyətdə qara-qırmızı cədvəl qoyulur. Ona göstərici və təlimat verilir. “Cədvəl 1-24-ə qədər qırmızı, 1-25-ə qədər qara qərəmlər göstərilib. Qara rəqəmləri (1-25) artan, qırmızı rəqəmləri (24-1) azalan sıra ilə tapıb yazın”. Bu proses növbə ilə əvvəlcə qırmızı, sonra qara sonra yenə qara rəqəmlər qurtarana qədər aparılmalıdır. formalarına görə müxtəlif ola bilər.

Eksperimentator protokolunda uşağın səhvlərini və hər 5 mərhələyə sərf olunan vaxtı qeyd edir. Burada səhvlər formalarıan görə müxtəlif ola bilər.

Məsələn, uşaq azalan sıra əvəzinə artan sırada, rənglərdə, rəqəmlərin dəyişdirilməində səhvlərə yol verə bilər.

Nəticənin qiymətləndirilməsi 5 mərhələ üzrə göstəricilərin qiymətləri əsasında hesablanır.

Diqqətin keçməsini aşağıdakı düztur vasitəsi ilə təyin etmək mümkündür.

A=T-C

**Metodika 6.** Dinamik diqqətin həcminin təyini.

Tədiqiatın aparılması üçün 35x35 sm ölçüdə, 4 sədvəldə hər damada təsadüfi 1-25-də qədər rəqəmlər qeyd olunmuş Qorbova cədvəli, sniyəölçən və göstərici tələb olunur. Tədiqiatın nəticələrini qeyd etmək üçün əvvəlcədən protokol hazırlanmalıdır.

Metodikanın tətbiqindən əvvəl psixoloq uşaqda tapşırığı yerinə yetirmək istədiyini formalaşdırmalıdır. Şifahi təlimatdan sonra uşaq tapşırığı yerinə yetirə bilər. Uşaq mümkün qədər tez həmin rəqəmləri tapmalıdır.

Yoxlama nəticələrini işlərkən 4 cədvəl üzrə rəqəmlərin axtarılmasının E-ümumi vaxtı da hesablanır.

## § 2.2. Yaddaşın diaqnostikası üsulları

İnsanın yaddaşı diqqətinə nisbətən daha çox istiqamətlidir. Bir və ya iki metodika ilə, bir və ya iki xüsusi götərici ilə onu praktik cəhətdən kifayət qədər qiymətləndirmək mümkün deyil. Uşaq məktəbə daxil olarkən onun təlimdə uğurlar əldə etməsi üçün aşağıdakı yaddaş növlərini və onların göstərişlərini bilmək zəruridir.

1. Operativ yaddaş növlərinə uyğun qısamüddətli görmə və səsqavrama, həmçinin informasiyanın həcmi və saxlama qabiliyyəti, yaxşı qısamüddətli və operativ görmə eşitmə yaddaşı olmadan duyğu orqanlarının köməyi ilə qavranılan hər hansı informasiya-təlim, əmək. sosial və s. uzunmüddətli yaddaşa keçib uzun müddət saxlanıla bilməz.

2. Uşağın müstəqil, təşəbbüskarlıqla istifadə etdiyi müxtəlif məlumatı, yaddasaxlama və bərpa etməsi ilə xarakterizə edilən vasitəli yaddaşı.

3.Öyrənmə dinamikliyi və onun məhuldarlığı, müəyyən informasiya vahidləri seçimini səhvsiz yada salınması üçün zəruri olan rəkrarlama miqdarı kimi götəriciləri də daxili olmaqla yadda saxlama və yadasalma proseslərinin dinamikliyini düzgün və dəqiq qiymətləndirmək də vacibdir.

Yaddaşın bütün bu növlərini və göstəricilərin müəyyən etmə üsulları ilə baxaq, ancaq yaddaşın psixodiqanostikası prosesində diqqət vermək üçün aşağıdakıları qeyd edək.

Kiçik yaşlı məktəbli uşaqların yaddaşı da diqqəti kimi bütöv deyil, diferensial, ayrı-ayrı göstəriciləri üzrə, onların hər birinə görə yaddaşı üzrə müstəqil qiymətləndirmə aparılmalıdır.

Xüsusi yaddaş növlərinə aid ayrı-ayrı göstəricilərin əksəriyyəti müqayisədə yüksəkdirsə, qalan göstəricilər orta səviyyədədirsə, bu o demək deyil ki, uşağın yaddaşını yaxşı və orta olması haqqında inandırıcı nəticə çıxarmaq olmaz. Öyrənilməmiş yaddaş növləri bəzi fəaliyyət növlər kimidir. Odur ki, uşağın yaddaşının vəziyyəti haqqında düzgün nəticə çıxarmaq üçün onun xüsusi göstəricilərinə əsaslandırmaq lazımdır.

**Metodika 7.** Qısamüddətli yaddaşının qiymətləndirilməsi.

Tədiqiqatın aparılması üçün 9 həndəsi fiqur, dağ, iynə, qızılgül, pişik, saat. palto, kitab, pəncərə. mişar, çəngəl, ayaq, güldan kimi 12 söz lazımdır. Verilmiş materialı təqdim etmək üçün bir qayda olaraq taxistoskopdan istifadə olunur. Eksperimentdən bir qrup şəxs keçirsə, test materialı karton lövhədə kəsik üzərində cihazsız aparılır. Hər elementin ekpoziiya vaxtı 2 saniyə, ekspoziiyalar arasındaı interval iə 1 saniyədir.

Məşğələlər fərdi aparılır. Uşaqdan inam yarandıqdan sonra eksperimentator yoxlanılan uşaqla masa arxasında qarşı-qarşıya oturub, şifahi təlimat verir: “İndi sənə qayda üzrə və yalnız bir dəfə həndəsi fiquru (və ya sözü) göstərəcəm (deyəcəm). Sən isə öz növbəsində onu yadda saxlayıb və mənim

komandamla göstərib və ya yazmalısan. Tapşırığı səhvsiz və cəld yerinə yetirməyin zəruridir".

Eksperimentator düzgün qavranılan və səhvlərə sərf olunan vaxtı və miqdarı protokolda qeyd edir. Sonra isə, düzgün qavranılan elementlərin –c, səhv elementlərin –m və buraxılan elementlərin –n ilə miqdarı hesablanır. Yaddaşın məhsuldarlığının əsas göstərisi –B ilə olunur və aşağıdakı düsturla hesablanır.

B=s-n/s+n x100

Qısamüddətli verbal-məntiqi yaddaş və bədii yaddaşın həcminin araşdırılması üçün protokol

| Stimullaşdırıcı material | Qavrama müddəti | Əlavə vaxt | Qavrama keyfiyyəti |
|---|---|---|---|
| Həndəi fiqur | | | |
| Sözlər | | | |

Hər elementin qavranılma vaxtı əlavə T-düzəliş hesabına aparılır.

Qısamüddətli yaddaşın həcminin göstəricisi –A, yaddaş məhsuldrlığının birləşdiricisi –B və əlavə düzəliş hesabı ilə qavrama müddəti, -T bu düsturla hesablanır.

A=B+T

Qısamüddətli bədii yaddaşın uğur göstəriciləri üzrə fərdi rəqəmləri alaraq, bütövlükdə qrup üzrə göstəricisinin orta riyazi həcmi hesablanır. Qrup (yaş) fərqlərini almaqdan ötrü hesablanan eksperimental rəqəmləri müqayisə etmək vaciibdir.

Alınmış rəqəmlərin digər xarakteristikaı üçün növbəti müqayisə, eləcə də interindividual təhlil üçün qısamüddətli yaddaş həcmini mütləq qiyməti –A-nın cədvəl qiyməti üzrə keçirmək zəruridir.

**Qısamüddətli yaddaş həcminin şkala qiymətləri.**

| Şkala qiyməti | Bədii yaddaşı | Verbal məntiqi yaddaş | Şkala qiyməti | Bədii yaddaş | Verbal məntiqi yaddaş |
|---|---|---|---|---|---|
| 19 | 100 | 86 | 9 | 63-67 | 38-42 |
| 18 | - | 79-86 | 8 | 59-62 | 33-38 |
| 17 | 98-100 | 74-79 | 7 | 54-58 | 29-33 |
| 16 | 94-97 | 69-74 | 6 | 50-53 | 23-29 |
| 15 | 90-93 | 65-69 | 5 | 46-49 | 20-23 |
| 14 | 87-89 | 60-65 | 4 | 40-45 | 12-20 |
| 13 | 82-86 | 56-60 | 3 | 36-39 | 11-12 |
| 12 | 76-81 | 51-56 | 2 | 31-35 | 7-11 |
| 11 | 73-75 | 47-51 | 1 | 26-30 | 2-7 |
| 10 | 68-72 | 42-47 | 0 | 25 | 2 |

Alınmış rəqəmlərin şkala qiymətləri qruparası fərqlərin olub-olmaması, orta qruplar arasınnda bir yoxlanan şəxsdən alınmış rəqəmlərin hansı həddə fərqlənməsi, eləcə də müxtəlif modal göstəricilərə görə fərdi müxtəlifliyin ifadə dərəcəsi haqda nəticə çıxarmağa imkan verir. Nəticələrin təhlil zamanı nəzərə almaq lazımdır ki, bu metodika üçün normativ göstəricilər yoxdur. Ona görə hər ayrı-ayrı nəticə yalnız başqaları ilə müqayisədə şərh ola bilər.

**Metodika 8.** Operativ görmə yaddaşının qiymətləndirilməsi.

Yaddaşın bu növü düzgün həll axtarışı üçün zəruri olan informasiyanı insanın nə qədər saxlayıb həll prosesində istifadə etməsi ilə xarakterizə olunur. Operativ yaddaşda informasiyanı saxlama müddəti onun əsas göstəricisidir. Operativ yaddaşın əlavə xarakteristikası uşağın tapşırığı həll prosesində buraxdığı səhvələrin sayından istifadə etmək olar (həll üçün lazım məlumat saxlamamaqla əlaqədar səhvlər).

Uşağın operativ görmə yaddaşı və onun göstəricilərini aşağıdakı qaydanın köməyi ilə müəyyən etmək olar. Uşağa şəkil 1-də hərəsi 6 cür ştrixlənmiş

kartoçka-tapşırıqları hər birinin 15 san. ardıcıllıqla göstərilir. Uşaq növbəti kartoşkaya baxandan sonra götürülür və 2-ci şəkildə 24 müxtəlif üçbucaq olan matris təklif olunur. Bu matrisdə hər bir kartoçkada uşağın gördüyü 6 üçbucaqlı da vardır.

Vəzifə ondan ibarətdir ki, hər bir kartoçkada olan üçbucaqların hər birini matrisdə axtarıb düzgün göstərsin.

Görmə operativ yaddaşının inkişafının əsas göstəricisi tapşırığın həllinə ayrılmış vaxtda həll edərkən buraxdığı səhvlər, üstəgəl birə bərabərdir.

Uşağın matrisdə düzgün tapıb göstərə bilmədiyi ümbucaqlar səhv hesab olunur. Bu göstərici aşağıdakı qaydada olur: Bütün dörd kartoşkadan matrisdə düzgün tapılmış üçbucaqların sayı müəyyən edilib cəmlənir və cəmi 4 yerə bölünür. Bu kəmiyyət düzgün tapılmış üçbucaqların orta kəmiyyət olur. Həmin kəmiyyətdən sonra 6-dan çıxılır və alınan nəticə buraxılmış səhvlərin orta kəmiyyəti hesab olunur. Sonra uşağın tapşırıq üzərində sərf etdiyi orta vaxt müddəti müəyyən olunur: uşağın bütün dörd kartoçka üzərində sərf etdiyi ümumi vaxt dörd hissəyə bölünür.

Uşağın matridə üçbucaq axtarışlarını başa çatdırma vaxtını eksperimentator aşağıdakı sualın köməyi ilə müəyyən edir: "ən artıq nə bacardığını göstərib başa çatdırdın, doğrudur?" Uşaq həmin sualı təsdiqləyən cavab verirə, matrislərdə üçbucaqların axtarışını dayandırıb, işini başa çatdırır. Uşağın matrisdə altı üçbucaq axtarışı üzərində sərf etdiyi orta vaxt müddətinin səhvlərin miqdarına bölünməsi axtarılan göstəricini əldə etməyə imkan verir.

## § 2.3. Kiçik məktəblilərin şəxsiyyət və şəxsiyyətlərarası münasibətləri

Kiçik məktəb və məktəbəqədər uşaqların şəxsiyyətini və şəxsiyyətlərarası münasibətini öyrənməyin özünəməxsus üsulları digər məktəblərin analoji psixodiaqnostik metodlarına nisbətən çox azdır.

Ancaq bu yaşlı uşaqların şəxsiyyətlərinin və kommunikator dəqiq psixodiaqnostikasının öyrənməsinə tələbat böyükyaşlı uşaqların diaqnostikasına nisbətən yüksəkdir. Söhbət təhsil sahəsindən gedirsə, təhsilinin əsas vəzifələrindən biri bu yaşlı uşaqların şəxsiyyətinin və şəxsiyyətlərarası münasibətlərinin formalaşdırılmasıdır.

Kiçik yaşlı məktəblilər, xüsusilə I-II sinif şagirdləri öz psixologiyasına və davranışına görə yuxarı sinif şagirdlərinə çox oxşayır.

Buna baxmayaraq, psixoloqların ixtiyarında müəyyən qədər kifayət dərəcəd valid və inandırıcı sürətdə mövcud olan kiçik yaşlı uşaqların şəxsiyyətini və şəxsiyyətlərarası münasibətlərin psixodiaqnostik metodları mövcuddur. Bu metodikaların çoxu yaşlılar üçün testlərin bu yaşa uyğunlaşdırılmışdır. Digər metodlar ancaq kiçik yaşlı məktəbli uşaqlar üçün yaradılmışdır. Bunlardan birisi şəxsiyyət planında xüsusi uçaq testləri uğurqazanma motivasiyasının psixodianostikasıdır. Bunların kiçik yaşlı məktəblilər üçün Q.Marreyin Tematik Apperseptiv Testlərində yaşlılar üçün nəzərdə tutulmuş proyektiv testlərin bu tələbata uyğunlaşdırılmış formasıdır.

Uğurqazanma motivasiyasının öyrənilməsi. Bu metodikanın tam təsviri məktəbəqədər yaşlı uşaqların şəxsiyyət keyfiyyətlərinin və şəxsiyyətlərarası münasibətlərinin psixodiaqnostikası fəslində verilmişdir. Burada deyilir ki, uşaqları psixodiaqnostik araşdırmadan keçirənlərin ixtiyarında uğurqazanma və həyəcan keçirmə motivlərini öyrənməyiin uşaqlar üçün xüsusi proyektiv testlər mövcuddur. Bu metodika uşaqlarda uğurqazanma motivlərinin inkişaf səviyyəsini qiymətləndirmək üçün nəzərdə tutulmuşdur. Bu motiv uşaqların müxtəlif vəziyyətlərdə və fəaliyyət növlərində fəaliyyəti ilə müqayisə edilib qiymətləndirilir. Ehtimal ki, uğurqazanma cəhdləri uşaqlarda uğurqazanma tələbatlarının, iddia səviyyəsi, özünüqiymətləndirmə, həyəcanlılıq, özünəinam kimi funksional və genetik tələbatların mövcud olması ilə şərtlənir. Uğurqazanma tələbatları anadangəlmə, irsi xarakter daşımır. Bu tələbat məktəbəqədər uşaqlıq dövründə, ilkin yaşlarda. xüsusilə məktəbə qəbul məqamında uşaqlarda şəxsiyyətin keyfiyyətin kifayət qədər möhkəm keyfiyyəti

kimi çıxış edə bilər. Artıq 5-6 yaşlarında bu tələbatın inkişaf səviyyəsinə uyğun olaraq fərdi fərqlər kifayət qədər müstəsna əhəmiyyət kəsb edir. Belə ki, uğurqazanma tələbatları güclü ifadə olunmuş uşaqlar həyatda həm şəxsiyyətlərinin və həm də peşəkarlıq keyfiyyətlərinin inkişafında böyük uğurlar əldə edirlər. Bu tələbatların zəif olan uğursuzluqdan qaçma tələbatları üstünlük təşkil edən uşaqlar isə onlarla müqayisədə çox geri qalırlar.

R.Kettelin şəxsiyyət testinin uşaqlar üçün nəzərdə tutulmuş variant. Bu metodika məktəbəqədər və kiçik məktəb yaşlı uşaqlar üçün xüsusi şəkildə hazırlanmış orijinal olub, R.Kettelin məşhur yaşlılar üçün 16 amilli şəxsiyyət testinin uşaqlar üçün modifikasiya edilib uyğunlaşdırılmış variantdır.

Filipsin məktəb həyəcanlılığı testinin köməyi ilə həyəcanlılıq vəziyyətinin qiymətləndirmək. Tədqiqatın məqsədi-az məktəb yaşlı və orta məktəb yaşlı uşaqların məktəblə bağlı həyəcanlılığın səviyyə və xarakteristikasının öyrənilməsi.

Test məktəblilər tərəfindən oxuna bilən, lakin yazılı şəkildə də rəqdim edilə bilən 58 sualdan ibarətdir. Hər suala birmənalı olaraq "Bəli" və ya "Xeyr" cavabı verməklə tələb olunur.

Təlimat: "Uşaqlar, indi özününzü məktəbdə necə hiss etdiyiniz barədə sorğu vərəqi veriləcək. Düzgün və səmimi cavab verməyə çalışın. Burada səhv və ya yalan. ayxşı və ya pis cavablar yoxdur. Cavablar üzərində çox fikirləşməyin. Vərəqin üzərində yuxarıda cavablar üşün öz adınızı, soyadınızı və sinfinizi yazın. Suala cavab verərək, onun sıra sayını və əgər razısınızsa, "+", əgər razı deyilsinizsə, "-" cavabı yazın".

**Sorğu vərəqinin mətni**

1. Sənə bütün siniflə birlikdə bir səviyyədə qalmaq çətindir?
2. Müəllim materialı nə dərəcədə mənimsədiyini yoxlayacağı barəsində sənə deyəndə sən narahat olursan?
3. Müəllimin sinfdə istədiyi kimi işləməyi sənə çətin gəlir?
4. Dərsi bilməyəndə müəllimin qəzəblənməsi hərdənbir yuxuna girirmi?
5. Sinifinizdə kiminsə səni vurması və ya döyməsi halları olub?

6. Yeni materialın izaha zamanı nə dediyini başa düşməyincə müəllimin tələsməsini tez-tezmi istəyirsən?
7. Tapşırığın cavabını və ya onu yerinə yetirərkən sən çoxmu həyəcanlanırsan?
8. Səninlə belə olubmi ki, dərsdə fikrini söyləməkdən çəkinmisən, çünki axmaq səhv edəcəyindən qorxmusan?
9. Səni dərsə cavab verməyə çağıranda dizlərin əsibmi?
10. Siz müxtəlif oyunlar oynanyanda sinif yoldaşların sənə tez-tezmi gülüblər?
11. Elə hal olub ki. sənə gözlədiyindən aşağı qiymət veriblər?
12. Sinidfə qal bilməyin səni narahat edibmi?
13. Seçim edilən və bir qayda olaraq sənin heç seçilmədiyin oyunlardan çəkinmirsənmi?
14. Elə vaxt olub kii, səni cavab verməyə çağıranda sən tir-tir əsmisən?
15. Səndə tez-tezmi elə təəssürat yaranır ki, sənin sinif yoldaşlarından heç kəs sənin istədiyin şeyi etmək istəməyib?
16. Tapşırığı yerinə yetirməyə başlamazdan əvvəl sən çoxmu həyəcan keçirirsən?
17. Valideyinlərin səndən gözlədikləri qiyməti almaq sənin üçün çətindirmi?
18. Sən arabir qorxursanmı ki, birdən sinifdə sənə pis olar?
19. Əgər sən cavab verən zaman səhv edirsənsə, sənin sinif yoldaşların sənə gülərlərmi?
20. Sən öz sinif yoldaşlarına oxşayırsanmı?
21. Sən tapşırığı yerinə yetirərkən onun öhdəsindən yaxşı gəlib-gəlməməyin haqda narahat olursan?
22. Sən sinifdə işləyən zaman hər şeyi yaxşı yadda saxlamağına əminsənmi?
23. Bəzən yuxuna girirmi ki, guya sən məktəbdəsən və müəllimin sualına cavab verə bilmirsən?

24. Sən sinifdə işləyən zaman hər şeyi yaxşı yadda saxladığına əminsənmi?
25. Sənin işinin nəticələrinin sinif yoldaşlarına iş nəticələri ilə sinifdə müqayisə olunacağını əgər bilirsənsə, daha da səylə çalışırsan?
26. Sən sual verəndə daha az həyəcanlanmağın barədə tez-tezmi fikirləşirsən?
27. Arabir mübahisələrə girməkdən qorxursanmı?
28. Müəllimin sənin dərsə hazırlığını yoxlamağa hazırlaşdığını deyən zaman ürəyinin tez-tez döyündüyünü hiss dirsənmi?
29. Sən yaxşı qiymətlər alanda sənin dostlarından kimsə sənin irəli getmək istədiyini fikirləşirsənmi?
30. Uşaqların xüsusi diqqətlə yanaşdırları sinif yoldaşınla özünü yaxşı hiss edirsənmi?
31. Elə olubmu ki, sinifdə bəzi uşaqlar sənə toxunan nəsə deyiblər?
32. Necə fikirləşirsən, dərsin öhdəsindən gələ bilməyən şagirdlər sinifdə mövqelərini itirirlətmi?
33. Elə olubmu ki, sinif yoldaşlarının əksəriyyəti sənə diqqət yetirməyiblər?
34. Mənasız görüşməyindən tez-tez qorxursan?
35. Müəllimlərin sənə necə münasibət bəslədiyindən razisanmı?
36. Digər sinif yoldaşlarının anaları kimi sənin də anan axşam ziyatətlərinin təşkilində sənə kömək edirmi?
37. Ətrafdakılar sənin haqqında nə fikirləşirlər nə vaxtsa səni narahat edibmi?
38. Gələcəkdə əvvəklindən daha yaxşı oxumağa ümid edirsəbmi?
39. Dərsə cavab verərkən bu vaxt sənin haqqında başqalarının nə düşündüyü barədə tez-tez fikirləşirsən?
40. Onlardan daha üstün olmağa müvəffəq olanda sənin sinif yoldaşlarından bəziləri hirslənirmi?
41. Sinif yoldaşlarının sənə olan münasibətlərindən sən razısanmı?
42. Müəllimlə məktəbdə qalanda özünün yaxşı hiss edirsəınmi?

43. Sənin sinif yoldaşların sənin zahiri görkəminə və davranışına hərdənbir istehza edirlərmi?
44. Sən elə fikirləşirsən ki, öz məktəb işlərin haqda başalarından daha çox narahat olursan?
45. Əgər səndən soruşanda sən cavab verə bilmirsənsə, elə indicə ağlayacağını hiss edirsənmi?
46. Axşam yatağına uzanan zaman sabah məktəbdə nə baş verəcəyi barədə hərdənbir narahatlıqla düşünürsənmi?
47. Çətin tapşırıq üzərində işləyərkən, əvvəl bildiyin şeyləri tamamilə unutduğun hərdən hiss edirsənmi?
48. Tapşırıq üzərində çalışarkən əllərin yüngülcə səmir ki?
49. Müəllim sinifə tapşırıq hazırladığını deyən zaman əsəbləşməyə başladığını hiss edirsənmi?
50. Sənin biliyinin məktəbdə yoxlanması səni qorxudurmu?
51. Müəllim sinifə tapşırıq verməyə hazırlaşdığını deyəndə, onların öhdəsində gələ bilməyəcəyinin qorxusunu hiss edirsənmi?
52. Hərdən yuxuna giribmi ki, sinif yoldaşlarının edə bilmədiklərini sən bilirsən?
53. Müəllim materialı başa salanda sənə elə gəlirmi ki, sinif yoldaşların onu səndən daha yaxşı qavrayırlar?
54. Yol ilə məktəbə gedərkən narahat olursanmı ki, birdən müəllim sinifə yoxlama işi verə bilər?
55. Tapşırığı yerinə yetirərkən adətən bunu pis etdiyini hiss edirsənmi?
56. Bütün sinif qarşısında lövhə üzərində tapşırığı yerinə yetirilməyini müəllim səndən xahiş edəndə, sənin əlin yüngülcə əsmirmi?

**Nəticənin işlənməsi və izahı**

Nəticənin işlənməsi zamanı testin açarına uyğun gəlməyən sualları, cavabları ayrılır. Məsələn, 56- uşaq “Bəli” cavabını verir, amma açarda suala “-”,

daha doğrusu, “Xeyir” uyğundur. Açarla düz gəlməyən cavablar həyəcanlılığın təzahürüdür. İşlərin nəticələri hesablanır.

a) bütün tes üzrə uyğun gəlməyən ümumi say. Əgər o, 50%-dən çoxdursa, uşağın artıq həyəcanlılığı, əgər testin suallarının ümumi sayının 75%-dən çoxdursa yüksək həyəcanlılığı haqda demək olar.

b) mətndə ayrılan həyəcanlılığın hər 8 faktor üzrə uyğunsuz say. həyəcanlılığın səviyyəsi birinci haldakı kimi müəyyənləşdirilir. Məktəblilərin çoxunda artıqlığı ilə müəyyən edilə bilən bu və ya digər həyəcanlı sindrom (amillər) və onların miqdarı ilə ümumi daxili emosional vəziyyəti təhlil edilir.

Özünüqiymətləndirmə-mürəkkəb dinamik şəxs təhsil, əqli fəaliyyətin şəxsi parametridir. Özünüqiymətləndirmə ilk növbədə tənzim edilən funkasiyanı yerinə yetirir. Məktəblinin təhsil fəaliyyətinin effektivliyi yalnız yaxşı mənimsənilmiş bilik sistemindən və əqli fəaliyyətin qəbulunun əldə edilməsindən asılı deyil, lakin özünüqiymətləndirmə səviyyəsindən də asılı deyil. Təhsil fəaliyyətinin əldə olunmasından və şəxsiyyətin inkişafında uğurlar arasında sıx əlaqə mövcuddur. Bu onunla izah olunur ki, onda uşağın nail olduğu və onun cəhd etdiyi şey, daha doğrusu, onun gələcəyinin proyekti interqrallaşır.

Bu proyektin mükəmməl olmasına baxmayaraq. o bütövlükdə davranşım qaydaya salınmasında, o cümlədən, təlim fəaliyyətində də mühüm əhəmiyyətə malikdir. Özünüqiymətləndirmə ən adekvat təhsil fəaliyyətinin mövzusunun-nailiyyət mövzusunun əsasında durur. Şəxsiyyətin ehtiyac duyduğu müsbət qiymətin yüksəkliyi müxtəlif ola bilər. Bəzilərini, onlar deyəndə ki, onların işi başqalarınınkından pis deyil, tamamilə təmin edir. Başqaları adisindən yüksək qiymətə, üçüncülər-bütün o birilərinə nisbətən daha yüksək qiymətə iddia edirlər.

Kiçik məktəb yaşında özunuqiymətləndirmə əsas surətdə müəllimin qiymətlərinin təsiri altında yaranır. Uşaqlar öz intellektual imkanlarına və onların başqaları tərəfindən necə qiymətləndirilməsinə xüsusi məna verirlər. Uşaqlara vacibdir ki, müsbət qiymət hamı tərəfindən qəbul edilmiş olsun. Özünüqiymətləndirmə və onunla bağlı iddia səviyyəsi əqli fəaliyyətin şəxsi parametrləri olaraq, təlim fəaliyyətinin təsiri altında az yaşlı məktəblinin:

1. Yüksək iş bacarığı, xüsusilə maraqsız işdə;
2. Davranışların, nitqində səlislik (hətta psixotravmatit vəziyyətə baxmayaq);
3. Ünsiyyətdə təmkinlik (maraqlı yenilikləri qoruyub saxlamaq qabiliyyəti);
4. Qərarların qəbulunda tələsməmək;
5. Qeyri-iradi ləngimə müxtəlif vərdişləri tez və möhkəm formalaşması;
6. Hərəkətdə, nitqdə tələsmək, çox az pantomimik, yemək zamanı qidanın asta-asta və yaxşı çeynənilməsi, daha tam istirahəti təmin edən yaxşı yuxu və s.

"Zəif" tipə aid edilməsi üçün müqabil (əks, zidd) göstəricilər əsasdır. Əsəb proseslərinin mütəhərrikliyi barəsində, ilk növbədə qıcıqlanmadan ləngiməyə keçməni və əksini nəzərdə tutaraq, aşağıdakı göstəricilərə görə mühakimə yürütmək olar:

1. Hətta təzə işi mənimsəyəndə belə, fəaliyyətin ən çox üstün tempi;
2. Yeni materialın tez mənimsənilməsi (hərdən də uyğun təkrarın olmaması nəticəsində materialın tez unudulması);
3. Yeni təəssüratlara can atma;
4. Tez yuxuya getmə və ya oyanma;
5. Canlı nitq, mimika, ümumi cəldlik;
6. Yeni şəraiti tez mənimsəmə və ona tez uyğunlaşma;

İnternlər xüsusunda qruplara qoşulma üçün zidd (əks) əlamətlər əsasdır. Müşahidənin köməyi vasitəilə müəllim şagirdlərin intellektual qabiliyyətlərinin, onların məlumatları məntiqini, müntəzəm istifadə etmək və onun ardınca fikirləri şərh etmək bacarağını qiymətləndirə bilər. Şagirdləri müşahidə edən zaman onların intellektual sahəsinin, fəaliyyətinin növbəti xarakteristikalarına diqqət yetirməyə müəllimi öyrətmək lazımdır:

1. Material şərhində sistemliliyin olmaması;
2. Amillərin səthi təhlili;
3. Əsaslandırılmamış nəticə;

4. Nətivə və yekunların primitivliyi;
5. Öz şəxsi göstəricilərinə uyğun ziddiyyət;
6. Açıq-aydın mənasız bəhanələrlə küsmək

Ünsiyyət prosesində təcrübəli müəllim bzi şagirdlərdə yüksək əsəbilik, psixopatik əlamətlərin olması bardə müəyyən məlumat toplaya bilər. Belə əlamətlər haqqında bir sıra əlamətlərə görə mühakimə yürütmək olar. Bu zaman mühüm olan son nəticəni çıxarmaq səlahiyyətli deyil.

# NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR

Psixodiaqnostika elmi və kiçik yaşlı məktəblilərin psixi xüsusiyyətlərin araşdırılmasından aşağıdakı nəticələr əldə edilir:

1. Psixodiaqnostika psixologiya elminin xüsusi sahələrindən biri kimi, insanların mövcud psixoloji vəziyyətinin və ayrılıqda götürülmüş proses xüsusiyyət və hallarından birinin səviyyəsinin, vəziyyətinin ölçülməsi əsasında peşəkar qiymət verilməsidir. Deməli, psixodiaqnostika müəyyən vasitə və metodların, prosedur qaydaların köməyi ilə insan psixikasının xüusi bir sahəsinə dair biliklər toplusudur.

2. Blank, sorğu və rəsim metodikasının köməyi ilə sınaqdan keçirilən insanların davranışının, psixikasının məzmununda əks olunmuş surəti, dinamikanı, qıcıqlanma səviyyəsini, ekstroversiya-interoversiya, idrak proseslərinin, keyfiyyətlərinin səviyyəsi və s. haqqında doğru-düzgün məlumat almaq mümkün olur. Psixodiaqnostik müxtəlif test tapşırıqlarından istifadə olunur. Test tapşırıqları tipinə görə sorğu, iqrari (inkarı), produktiv, hərəki, fizioloji və s. testlərə ayrılır. Testlərdə suallardan, verbal, obrazlı, maddi və s. yaradıcılıq məhsullarından, hərəkətlərindən, hərəkətlərdən alınmış reaksiyalardan istifadə olunur.

Psixodiaqnostik metodikalar strukturuna görə təkölçülü və çoxölmülü olub, bir və ya bir neçə eyni tipli psixoloji keyifiyyətləri müəyyən prosedur qaydaların köməyi ilə sınaqdan keçirib qiymətləndirməyə imkan verir.

3. Psixodiaqnostik metodikalar müəyyən meyarlar əsasında aparılır. Metodikalarda validlik xarakteristikasına etibarlılığa, dəqiqliyə və təkmənalılığa əməl edilməlidir.

4. Kiçik məktəb yaşlı uşaqlarım psixodiaqnostikası geniş dairədə psixodiaqnostik məsələlərin həllinə yönəlmişdir. Kiçik məktəbli yaşlı

uşaqların məktəb təliminə hazırlığı onların şəxsiyyətinin, idrak proseslərinin; diqqət proseslərinin, yaddaşının, təxəyyülünün, təfəkkürünün, özünənəzarət və özünüqiymətləndirmə, həmçinin iddia səviyyəsinin müəyyən edilməsinə yönəlmişdir. Bu psixoloji hadisələrin kiçik məktəb yaşlı uşaqlarda özünü göstərən təzahür xüsusiyyətlərin bir tərəfdən ibtidai sinif müəllimlərinin öz işini daha səmərəli və məqsədəuyğun təşkil etməsinə, digər tərəfdən uşaqların özünü, öz fəaliyyətini, maraq və meyllərini dərk edib, məhz həmin maraq və meyllərə doğru istiqamətlənməsinə imkanlar yaradır.

5. Bu araşdırma elmi-metodik vəsait kimi məktəb psixoloqlarının məktəblərimizdə pedaqoji psixoloji işin səviyyəsinin yükəlməsini təmin etmək məqsədilə aparılmışdır.

# ƏDƏBİYYAT


1. Avesta. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı. 1995.
2. Ana kitabələr. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı. 1996.
3. Bayramov Ə.S., Əlizadə Ə.Ə. “Psixologiya”. Bakı, 2002
4. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə həyatının etika və psixologiyası kursunun tədrisinin ümumi məsələləri. Bakı. Azərbaycan Respublikası MN-nin nəşri, 1988, 27 s.
5. Əlizadə Ə. Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı-1998.
6. Əlizadə Ə.Təxəyyül. Bakı-2006
7. Seyidov S., Həmzəyev M. Psixologiya. Nurlan-2007
8. Əliyev R.Psixologiya. Bakı-2003
9. Quliyev E. Yaş psixologiyasının tədrisi məsələləri. Bakı-1997.
10. Qədirov Ə.Yaş və pedaqoji psixologiyası. Bakı-1997.
11. Kazımov N. Mərhələli tərbiyə nəzəriyyəsi. Bakı-2007
12. Kazımov N. Tərbiyənin elmi-pedaqoji əsasları. Bakı-1983.
13. Fətəliyev X.Ailədə milli tərbiyə. Bakı-1996.
14. Göyüşov Z. Əxlaqi sərvətlər. Bakı-1975.
15. Selivanov V. Məktəblilərin idarə tərbiyəsi. Bakı-1958.
16. Qədirov Ə. Yaş psixologiyası. Bakı-2002.
17. Əliyev R. Məktəbə psixoloji xidmətin aktual məsələləri. bakı-2004.
18. Əlizadə Ə. Istedadlı uşaqlar, psixoloji məsələlər, esseler, Etüdlər. Bakı-2005.
19. Mehdizadə Z. Uşaq psixologiyası. –Bakı, 1982

20. Əliyeva V.R. Kiçik məktəblilərdə özünüqiymətləndirmənin təşəkkül xüsusiyyətləri, M.Ə.Rəsulzadə adına BDU, Psixolgiya kafedrası, B., 1991.
21. Валлон А. Психогеческое развитйе ребенка. М., 1964
22. Гайда В.К., Захаров В.П. Психологическо тестирование. Л. 1987.
23. Метод пиктограмм в психодиагностике психических заболеваний. Херсонкий Б.Г. -М. 1998.
24. Тест-опросник-Г. Айзенка ЕР.
25. Диагностика учебной деятельности и интеллектуального развития детей. М., 1981.
26. Основы профессионалной психодиагностики. Л., 1984
27. Практические занятия по психологии. М., 1972
28. Вопросы педагоческой психодиагностики Таллин, 1976. 156 стр.
29. Психодиагностика в школа. Таллин, 1980.